25_27 IYUl-QARA.qxd 7/10/2025 8:39 PM Page 1


# UNİKAL

№25 (2255) 11 iyul 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Bakı-İrəvan dialoqunun yeni mərhələsi: Əbu-Dabidə ümumi razılığa gəlindi



Səh.5

## Azərbaycanda rus bölmələri bağlanacaq? - Nazirdən açıqlama

*"Azərbaycanda rus bölmələrinin bağlanması məsələsi gündəmdə deyil". "Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində keçirilən "Sertifikatlaşdırma 2025: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə deyib. Nazirin sözlərinə görə, bu bölmədə ciddi müəllim çatışmazlığı problemi var: "Rus bölməsində yarıbayarı aşağı bal ilə müəllimləri işə götürürük. Niyə? Çünki başqa adam yoxdur. Bu o demək deyil ki, biz rus bölmələrini bağlamalıyıq. Ümumilikdə isə görürük ki, həmin bölmələrin göstəriciləri aşağı düşür. Səbəb isə müəllimdir. Biz də istəyirik ki...*

Səh.9

## "Hüquqi manea aradan qaldırıldıqdan sonra sülh müqaviləsini imzalamaq olar"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla keçirdiyi görüşün əhəmiyyətindən, bu mühüm görüşün...*

Səh.4

## Dərman bazarındakı monopolistlərin ağlasığmaz oyunları



*2025-ci ilin ilk 5 ayında pərakəndə ticarət dövriyyəsi 3.8 faiz artaraq 23 milyard 341 milyon manat olub. Bu, məhz həmin məbləğdə mal və xidmətlərin istehlakçılara satılması anlamına gəlir. Pərakəndə ticarət dövriyyəsinin strukturunda diqqət çəkən əsas məqamlardan biri...*

Səh.5

## Vətəndaş məmnunluğu təmin edilsin - Nazirdən tələb



*Daxili işlər naziri Vilayət Eyvazov polis əməkdaşlarından vətəndaş məmnunluğunun təmin edilməsi, qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib. "Unikal" xəbər verir ki, bu barədə Vilayət Eyvazov Daxili İşlər Nazirliyində keçirilən 6 ayın yekunlarına dair kollegiya iclasında danışıb. Nazir Vilayət Eyvazov qeyd edib ki, polislərdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi...*

Səh.2

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 2



# Niyaməddin Musayev illərdir küsülü olduğu Musadan danışdı



***Xalq artisti Niyaməddin Musayev ilk dəfə illərdir küsülü olduğu qardaşı oğlu Musa Musayevin adını çəkib.***

"Xəzər axşamı" proqramında qonaq olan müğənni aparıcı Aytəkin Musayevin "Sənətinizi davam etdirəcək kimisə görürsünüzmü" sualına belə cavab verib:

"Biz tərəfdən Cabbar Musayev, Musa Musayev var. Gənclərimiz də yaxşı oxuyur. Başqa heç kim yoxdur".

Qeyd edək ki, N.Musayev və C.Musayev Musa Musayevlə danışmır. M.Musayev həyat yoldaşı Təranə Qumral bununla bağlı açıqlamada "Bəli, onlar küsülüdürlər. Musa boynuna almasa da mən deyirəm. Onların danışmamaqlarının səbəbi mənəm. Mənə görə danışmırlar. Niyə biz bunu gizlətməliyik ki? Onlar məni sevmədiklərinə görə Musa ilə münasibətləri yoxdur" sözlərini deyib.

# "Balaəlinin mənə 300 manat borcu var, vermir"



***Meyxanaçı Yaşar Qafanlı açıqlaması ilə diqqət çəkib.***

"Unikal" xəbər verir ki, o, bəzi həmkarlarına iradını bildirib. Mahnı ozuyan söz ustalarını hədəf alan Qafanlının sözləri müzakirələr yaradıb: "Bəzi meyxanaçıları demişəm. Namiq Qaraçuxurlu, Orxan Lökbatanlı, Vasif Əzimov, Pərviz Bülbülənin də oxumağı yaxşıdır. Türkanla əla duetləri var. Bəziləri toya oxuyan kimi gəlirlər. Görürlər ki, oxumaqdan pul qazanma bilmirlər, meyxanaya keçirlər. Üz tuturam həmin meyxana deyənlərə, kimə yaraşırsa, onlar oxusunlar. Yerindən duran hərə bir mahnı oxumaqla deyil də...

Balaəliyə mahnı oxumağı yaraşdırmıram. O, mənim dostum-qardaşımdır. And olsun ki, xətrini çox istəyirəm. Mənə də 300 manat borcu var, neçə vaxtdır vermir (gülür). Meyxanaçı kimi trenddə qayfiyələri var, amma oxumaq...".

# Məhkəmə Tolik barədə qərar verdi

***Nərimanov Rayon Məhkəməsində produser, aparıcı Tarix Əliyev (Tolik) barəsində xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə iclası keçirilib.***



Bir müddət əvvəl Tolikin sosial şəbəkədə canlı yayımda məhkumları təhqir etməsi ilə bağlı iddialar yayılmışdı. T.Əliyev isə açıqlama yayaraq, elə bir şey etmədiyini bunların sadəcə şayiə olduğunu bildirib. Bu məsələdən sonra məhkumlardan birinin həyat yoldaşı Toliki məhkəməyə verib.

Məhkəmə tərəfindən xüsusi ittiham qaydasında şikayətin icraata götürülməsindən imtina edilib.

T.Əliyevin vəkili Ramil Vəliyev məsələ ilə bağlı danışaraq xüsusi ittiham qaydasında şikayətin əsassız olduğunu deyib. O bildirib ki, şikayət həm də qanunvericiliyin tələblərinə uyğun tərtib edilməyib. Tarix Əliyevdən şikayət vermiş şəxs təhqir edilməyib, həmin şəxsin hər hansısa bir hüquqları pozulmayıb.



# Gülyanaq Məmmədovaya "Fəxri doktor" adı verildi

***Xalq artisti Gülyanaq Məmmədova türk dünyası mədəniyyətinin təbliğində göstərdiyi misilsiz fəaliyyətinə görə BZT Turan Akamediyasının "Fəxri doktor" adına layiq görülüb.***

Bu haqda müğənni özü məlumat yayıb. G.Məmmədova diploma olan fotosunu izləyiciləri ilə bölüşüb.

# "Nəvəyə söyüş öyrədirlər"

***"İnsan övladına söz deyə bilmir, amma nəvəyə hər şeyi ürəkdən deyirsən. Nəvə şirindir. Elə bil onun sevgisini Allah doğulandan sonra gətirib ürəyə qoyur. Bunu yaşayıb bilməlisən".***



Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Zakir Əliyev "Full şou" verilişində deyib. Müğənni nəvəsindən danışıb.

Valideynlərə səslənən Z.Əliyev nəvənin tərbiyəsindən danışıb: "O demək deyil ki, övladı çox istəmirik. Övlad sənə artıq söz desə, qəlbinə dəyər. Amma nəvə nəsə deyəndə ürəyə yağ kimi yayılır. Bəzi ailələr var ki, nəvəyə söyüş öyrədirlər. İstəyir onu söysün. Olmamalıdır".

# "Bütün kişilər xəyanət edir"

***Müğənni Müjgan Ayxanın açıqlaması müzakirələr yaradıb.***



"Maqazin Plus"a danışan ifaçı iddialı fikirlər səsləndirib. "Xəyanətdir də. Etməyən var? Kişiləri deyirəm. Məncə elə bir kişi yoxdur. Xəyanətin növləri var: göz danışıq xəyanəti. Elə biri yoxdur ki, etməsin. Mən sadiq qadınam. Dostuma belə heç vaxt xəyanət etməmişəm".

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 3





## Azərbaycanda rus bölmələri bağlanacaq? - Nazirdən açıqlama

***"Azərbaycanda rus bölmələrinin bağlanması məsələsi gündəmdə deyil".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində keçirilən "Sertifikatlaşdırma 2025: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə deyib.

Nazirin sözlərinə görə, bu bölmədə ciddi müəllim çatışmazlığı problemi var: "Rus bölməsində yarıbayarı aşağı bal ilə müəllimləri işə götürürük. Niyə? Çünki başqa adam yoxdur.

Bu o demək deyil ki, biz rus bölmələrini bağlamalıyıq. Ümumilikdə isə görürük ki, həmin bölmələrin göstəriciləri aşağı düşür. Səbəb isə müəllimdir.

Biz də istəyirik ki, uşaqlarımız rus dilində yaxşı bilsinlər. Bu, bizim üstünlüyümüzdür. Amma dövlət dilini bilmək hamının borcudur. Bir dili bilmək digərini üstələməməlidir"

***Ağarza Elçinoğlu***

## Rusiya məhkəməsi Səfərovların həbsi ilə bağlı iki apellyasiya şikayətinə baxıb

***Sverdlovsk vilayət məhkəməsi Ayaz və Akif Səfərovun həbsi ilə bağlı iki apellyasiya şikayətinə baxıb.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat dərc edib. Vilayət məhkəməsi iyulun 19-dək Yekaterinburq şəhərinin Leninski məhkəməsində həbs edilmiş Akif Səfərovun həbsindən verilən apellyasiya şikayətinə baxıb. Akifə Rusiya Federasiyası Cinayət Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinin "g" bəndi ilə "Bir qrup şəxs tərəfindən və ya qabaqcadan əlbir olaraq mütəşəkkil dəstə tərəfindən törədilmiş adam öldürmə" ittihamı irəli sürülüb.

"Sverdlovsk vilayət məhkəməsi iş materiallarına baxarkən apellyasiya instansiyasında işə baxılmasına mane olan halları müəyyən edib. İş materialları apellyasiya baxışından çıxarılıb və səhvləri düzəltmək üçün Yekaterinburqun Leninski rayon məhkəməsinə qaytarılıb", - mətbuat xidmətindən bildirilib. Ayaz Səfərovun müraciətinə baxılarkən heç bir problem olmayıb. Ayaz Rusiya Federasiyası Cinayət Məcəlləsinin qardaşı ilə eyni maddəsi ilə ittiham olunur. Rayon məhkəməsi Ayaz Səfərovun həbsinin qanunvericiliyə uyğun həyata keçirildiyi barədə qərar verib.

## İqtisadiyyat və Humanitar Kollecdə yeni təyinatlar

***Agentliyin müvafiq əmrləri ilə Xırdalan şəhərində yerləşən Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə bir sıra yeni rəhbər təyinatı həyata keçirilib.***

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən "Unikal"a məlumat verilib ki, Hicran Əyyubova kollecin direktoru, Gülnar Kərimova tədris işləri üzrə direktor müavini, Firuzə Fərmanlı isə tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə təyin olunublar.

# Dövlət Turizm Agentliyindən milyonlarla manatlıq təbliğat və qandonduran qiymətlər!

### Bölgələrimizdəki turizm obyektlərində istirahət etmək istəyənlərin ənənəvi narazılığı davam edir - Yenə bahalıq, yenə xidmətdə keyfiyyətsizlik...

***Bu günlərdə məlum oldu ki, Dövlət Turizm Agentliyi "Vata" şirkəti ilə satınalma müqaviləsi bağlayacaq.***

Yaxın Şərq ölkələrində təbliğat xidmətlərinin satın alınması ilə bağlı keçirilən tenderin qalibi seçilib.

Şirkətin qiymət təklifi 529 840 manat olub.

Bu məbləğə Səudiyyə Ərəbistanında və Birləşmiş Ərəb Əmirliklərində yol şousunun, Küveytdə, Omanda və Qətərdə "b2b" tədbirlərinin təşkili, nəhayət, Birləşmiş Ərəb Əmirliklərində şəbəkələşmə tədbirinin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Dövlət Turizm Agentliyi son zamanlar dünyanın müxtəlif yerlərində təbliğat xidmətlərinin satın alınması üçün bir çox oxşar tender keçirib. Məsələn, bu qurumun Çin, Hindistan və Yaponiyada təbliğat xidmətlərinə 1 435 000 AZN xərcləyəcəyi aydınlaşmışdı. Xidmətləri "Vega Travel Management" MMC-nin həyata keçirəcəyi məlum olmuşdu. Fevralda isə Dövlət Turizm Agentliyi ABŞ-nin məşhur CNN televiziyası ("Cable News Network Inc" şirkəti - 51-0386049) ilə satınalma müqaviləsi imzalamışdı. Bu barədə məlumatda deyilirdi ki, bir mənbədən satınalma metodu əsasında imzalanan müqaviləyə görə "Cable News Network Inc" şirkəti Dövlət Turizm Agentliyinə təbliğat xidməti göstərəcək və 1 milyon 190 min manat alacaq. Ötən il isə adı çəkilən agentlik Fransanın "Euronews" şirkəti (FR77387858046) ilə analoji satınalma müqaviləsi imzalayıb. Dövlət Turizm Agentliyi "Euronews" kanalına 1,7 milyon manat ödəmişdi.



Dövlət Turizm Agentliyinin təbliğat xidmətinə ilboyu milyonlarla manat xərcləməsinə sözümüz yoxdur; lakin bu təbliğatın effektiv nəticələr doğura bilməsi üçün illər uzunudur ölkə turizmində yığılıb qalan problemlərin həlli istiqamətində əməli fəaliyyətə keçirilməsi, təsirli addımlar atılması vacibdir.

Məsələ burasındadır ki, yayın gəlişi ilə sosial şəbəkələrdən tutmuş ənənəvi mediayadək əsas müzakirələrdən biri yenə də bölgələrdəki turizm obyektlərində hökm edən fantastik qiymətlər və müştərilərə xidmətin həmin qiymətlərlə qətiyyən üst-üstə düşməyən keyfiyyətidir.

Reallıq bundan ibarətdir ki, yay turizmi ilə bağlı qiymətlər bu il bir az da bahalaşıb. İstər bölgələrdəki hotellərdə, istərsə də rayonlarda və Bakıətrafı bağ evlərində günlük kirayələrdə qiymətlər od tutub yanır. Belə ki, regiondan və hoteldən asılı olaraq, ötən il qiymətlər, səhər yeməyi daxil, bir gecəlik 110 manatdan başlayır və 1200 manata qədər gedib çıxırdı. Orta qiymətlər isə 250-300 manat arasında idi. Günlük kirayə evlər də şəraitindən asılı olaraq 70-200 manat arasında dəyişirdi. Bu il də vəziyyət fərqli deyil. Faktiki olaraq yay turizmi orta statistik vətəndaşın cibinə uyğun deyil. Üstəlik, xarici turistlərin də Azərbaycandakı qiymətlərdən şikayətləndiyi məlum həqiqətdir. Hələ biz bu qiymətlərin xidmət keyfiyyəti ilə müqayisədə çox yüksək olduğunu demirik.

Belə olan təqdirdə Dövlət Turizm Agentliyinin ölkədən kənarda təbliğat üçün milyonlarla manat xərcləməsindən hər hansı effektivlik gözləmək mümkündürmü? Axı Azərbaycanda dincəlmək istəyənlər bu seçimi edərkən sadəcə təbliğat materiallarına əsaslanmırlar, ən azından internetin köməyi ilə hərtərəfli araşdırmalar aparırlar və...

Və təbii ki, ölkəmizdəki qiymətləri görüncə gəlib-gəlməmək məsələsində ən azından tərəddüdə düşürlər!

Turizm ekspertləri illərdir eyni həqiqətləri təkrarlayırlar; onlar təsdiqləyirlər ki, bu sahədə gedişat heç də ürəkaçan deyil - müştərilər qiymətlərin baha olmasından, xidmət səviyyəsinin isə qiymətlərə uyğun gəlməməsindən narazıdır; hətta elə obyektlər var ki, normal xidmət belə göstərə bilmir; bəzən antisanitar vəziyyətlərlə rastlaşmaq mümkündür. Bunlar tez- tez rast gəlinən və müştərilərin narazılığına səbəb olan məsələdir.

Digər tərəfdən, hazırda Azərbaycanda yeddi yüzə yaxın hotel və mehmanxana var. Otaq fondumuz təxminən 27 min, yataq sayı isə təxminən 60 mindir. Mütəxəssislər bildirirlər ki, bu, elə də böyük rəqəm deyil və əsasən yay mövsümündə yerlər dolur, mövcud tələbatı qarşılamaq üçün kifayət etmir. Nəticədə qiymətlər kəllə-çarxa çıxır.

Mövcud vəziyyəti dəyişməyin yolu isə sadədir: turizm sektorundakı baryerlər aradan qaldırılmalı, bu sahəyə məmurların qanunsuz müdaxiləsi, şəxsi biznes prizmasından yanaşması ən azından minimallaşdırılmalı, sağlam rəqabətin önü açılmalı, bu sahəyə investisiya qoyuluşunu artırmaq üçün güvənli sahibkarlıq mühiti genişləndirilməlidir. Əks halda illərdir davam edən problemlərə əncam çəkilməsi real görünmür.

Bəs məsuliyyət kimin üzərindədir? Şübhəsiz ki, sözügedən sahəyə məsul qurumun - Dövlət Turizm Agentliyinin!

Ancaq müşahidələr belə deməyə əsas verir ki, həmin Agentlik öz işini daha çox təbliğat xidmətlərinə satın alınması üçün milyonluq tenderlər keçirməklə bitmiş sayır. Ya da daha artığını etmək bacarığına sadəcə sahib deyil.

Belədə isə hər il eyni tərənənin səslənməsinə - qiymətlərin bahalığından, xidmət keyfiyyətinin isə aşağı olmasından şikayətlərə, narazılıqlara təəccüblənməməliyik.

***Sənan Mirzə***

25_27 IYUI-QARA.qxd 7/10/2025 8:40 PM Page 4



# Bakı-İrəvan dialoqunun yeni mərhələsi: Əbu-Dabidə ümumi razılığa gəlindi

***İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın nümayəndə heyətlərinin iştirakı ilə görüşü keçirilib.***

Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyanla görüşü çox konstruktiv mühitdə keçib. Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin vacib istiqamətləri - sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh müqaviləsinin paraflanması və digər məsələlərlə bağlı çox ciddi və substansiv müzakirələr aparılıb. Bu təmasların və danışıqların istər müxtəlif işçi qrupları səviyyəsində, eyni zamanda, daha yüksək səviyyələrdə davam etdirilməsi barədə ümumi razılıq əldə edilib.

Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Respublikasının Baş naziri arasında Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş görüşün yekunlarına dair mətbuata məlumatında bildirilib ki, görüşdə Azərbaycan-Ermənistan dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib.Qeyd edilib ki, ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.

“Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər. Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana səmimi qonaqpərvərliyə və ikitərəfli görüşün təşkilinə görə təşəkkür ediblər”, - məlumatda deyilir.

Məsələylə bağlı fikirlərini “Unikal”la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, Əbu-Dabidəki görüşün 5 saat çəkməsi o deməkdir ki, liderlər və heyətlər sülh sazişinin imzalanmasına və Zəngəzur dəhlizinin açılmasına əngəl olan ən mürəkkəb məsələləri geniş şəkildə müzakirə ediblər. “Görüşdən sonra yayımlanan açıqlama və xəbərlər də göstərir ki, tərəflər A-dan Z-yə bütün məsələləri müzakirə ediblər. Görüşün yekunu olaraq hər hansı sənədin imzalanmaması və ya ortaq bəyanatın qəbul edilməməsi narahatlığa əsas vermir. Dialoq genişlənib. Önəmli olan budur. Bütün hallarda Nikol Paşinyan Konstitusiya dəyişikliyini ləngitməməlidir. Sülhün açarı bundadır”, -deyə politoloq əlavə edib.

E.Şahinoğlu başqa bir məqama da diqqət çəkib. O deyib ki, Rusiya və Ermənistandakı şovinist dairələr Azərbaycan və Ermənistan liderlərinin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidəki görüşünün təşkilinin arxasında Vaşinqtonun dayandığını irəli sürüblər. Yəni həmin dairələrin məntiqinə görə, Birləşmiş Ərəb Əmirlikləri ABŞ-ın bölgədə əsas müttəfiqlərindən biri kimi Vaşinqtonun təlimatı əsasında Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil edib. Bunu həm də onunla izah edirlər ki, görüşdən bir gün əvvəl dövlət katibi Marko Rubio Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasıyla bağlı optimist fikirlər söyləyib.



Politoloqun fikrincə, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasında Vaşinqtonun maraqlı olmasında qeyri-adi heç nə yoxdur: “Buna baxmayaraq, Bakı ilə İrəvan arasında mümkün razılaşmanın arxasında Vaşinqtonun dayandığı barədə iddialar şişirdilib. Birincisi, Vaşinqtonun istəyinə rəğmən, Bakı ilə İrəvan öz aralarında razılıq əldə etməsəydilər, Əbu-Dabidə görüş baş tutmazdı. Deməli, tərəflər arasında uzun müddətdir birbaşa aparılan danışıqlarda irəliləyiş əldə olunub və bunun əsasında liderlər görüşə və mümkün razılaşmaya ehtiyac duyublar. O ki qaldı, görüşün Birləşmiş Ərəb Əmirliklərində keçirilməsinə, bu dövlətin ABŞ-ın tərəfdaşı olmaqla yanaşı Azərbaycan və Ermənistanla da sıx iqtisadi münasibətləri var. Yəni Birləşmiş Ərəb Əmirlikləri Azərbaycan və Ermənistan liderlərinin görüş yeri kimi münasib məkanlardan biri kimi dəyərləndirilib. Bunun üçün Vaşinqtonun xüsusi təklifinə ehtiyacı olmayıb. Böyük ehtimalla görüş yeri kimi Birləşmiş Ərəb Əmirliklərinin seçilməsi Prezident İlham Əliyevin təklifi ilə olub.

Əbu-Dabidə razılaşma əldə olunarsa, Rusiyada və Ermənistandakı şovinist dairələr baş nazir Nikol Paşinyana qarşı yeni “arqument” ortaya atacaqlar. Deyəcəklər ki, Paşinyan məhz Əbu Dabidəki mümkün razılaşma ərəfəsində Ermənistandakı rəqiblərini sıxışdırmağa və həbs etməyə başlayıb. Guya bu qüvvələr sıxışdırılmasaydı, Paşinyanın İlham Əliyevlə mümkün razılaşmasına əngəl olacaqdılar. Halbuki, radikallar azadlıqda olanda nə qədər çalışsalar da, ermənilərin əksəriyyətini Nikol Paşinyana qarşı üsyana qaldıra bilmədilər”.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, bu görüş və nəticəsi Azərbaycanın yaratdığı yeni reallığın təntənəsidir: “Və bu, getdikcə özünü daha qabarıq şəkildə göstərəcək, təsdiqləyəcək. Söhbət ondan gedir ki, sülh danışıqlarına müdaxilə edən, onu pozmaq istəyən qüvvələr bu prosesi saxlamaq istəyiblər. Amma onlar əks effektlə üzləşdilər. Proseslər sürətləndi. Proseslər sürətləndiyinə görə, artıq belə yüksək səviyyədə görüşlər keçirilir”.

S.Seyidov vurğulayıb ki, bu bir daha regionun vahid bir coğrafiya olduğunu göstərir: ”Regionu bölüb hökmranlıq edən qüvvələr bölgənin vahidləşməsini və bunun Azərbaycan tərəfindən edilməsinin şahidi olurlar. Təbii ki, Azərbaycanın yaratdığı yeni reallıq cazibədar, işlək və qəbulolunandır. Ona görə də Ermənistan da buna yaxınlaşır və başa düşür ki, onun taleyi və gələcəyi bu proseslərin qəbul olunması ilə bağlıdır. Əminik ki, belə də olacaq”.

Siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, Azərbaycan və Ermənistan arasında 5 saata qədər davam edən Əbu-Dabi görüşünü sülh danışıqlarında irəliyə doğru addım kimi qiymətləndirmək olar: “Birincisi, bu, son dövrlər keçirilən əsas görüş idi: iki ölkə lideri son vaxtlar müxtəlif beynəlxalq tədbirlər çərçivəsində bir araya gəlirdi ki, bu təmasların davam etdirilməsi baxımından vacib olsa da, detallı müzakirələrin aparılması ən azı texniki baxımdan mümkün deyildi. İkincisi, görüş geniş tərkibdə keçirildi: bu, sülh sazişinin bütün istiqamətlərinin müzakirə edildiyi və razılaşma imkanlarının tükənmədiyi deməkdir. Görüşdən çıxan nəticə odur ki, Bakı və İrəvanda problemlərin ikitərəfli formatda müzakirə edilməsi və həll yollarının tapılması üçün siyasi iradə mövcuddur. Tərəflərin görüşlə bağlı rəsmi açıqlamalarının fərqlənməməsi də diqqətçəkən məqamdır: bu o deməkdir ki, ziddiyyətli məqamlardan daha çox, uzlaşma nöqtələri tapılıb. Və ən önəmli məqam danışıqların vasitəçi olmadan - ikitərəfli formatda davam etdirilməsinə dair razılaşmadır. Razılaşmalara əsasən təmaslar davam etdiriləcək, lakin əsas məqam konkret məsələlər üzrə praktiki addımların atılıb-atılmayacağıdır. Bakı-İrəvan xəttində baş verənlər, xüsusilə regional proseslər fonunda müəyyən ehtimalları önə çıxarır:

- Zəngəzur dəhlizinin açılması - regional kommunikasiyaların bərpası əsas ziddiyyətli məqam olsa da, hazırda tərəflər arasında mövqelərin yaxınlaşdığı müşahidə edilir: Rusiyanın dəhlizdə hərbi mövcudluğu hər iki tərəfdə qəbul edilmir, eləcə də Naxçıvana maneəsiz keçidin təmin edilməsində müəyyən razılaşma ehtimalları var, əks təqdirdə, Bakı nəinki bu görüşü konstruktiv hesab etməzdi, ümumiyyətlə Əbu-Dabiyə getməzdi; əsas həll edilməli detal maneəsiz keçidin təhlükəsizliyinin necə qorunmasıdır; ABŞ qarant ölkə kimi çıxış etmək istəsə də, üçüncü qüvvələrin mövcudluğunun regionu qlobal mübarizə platformasına çevirdiyini nəzərə alsaq, Bakı və İrəvan bu məsələdə də ikitərəfli formatda həll yolunun tapılmasına çalışa bilər;
- Rəsmi məlumatda sərhədin delimitasiyası ilə bağlı dövlət komissiyalarına tapşırıqların verildiyi qeyd olunur: bu, anklavlar məsələsində həll yollarının tapılması istiqamətində işlərin davam etdiriləcəyi gözləntisini yaradır;
- Tərəflər etimad mühitinin yaradılmasına razılaşıb: parlamentlər, eləcə də ictimaiyyət nümayəndələri arasında müxtəlif təmasların daha intensiv şəkildə qurulmasının şahidi ola bilərik;
- Bakının iki əsas tələbi hələ də aktualdır:

1. Ermənistan konstitusiyasının dəyişdirilməsi: İrəvan bunu qəbul edir, lakin bunun 2026-cı ildən tez olacağı ehtimalı azdır, xüsusilə Paşinyanın daxildəki “minaları” tam neytrallaşdıra bilməməsi fonunda;
2. ATƏT-in de-fakto mövcud olmayan Minsk qrupunun de-yure buraxılması: bu görüşün nəticəsi kimi qarşıdakı dövrdə Minsk qrupunun buraxılması ilə bağlı birgə müraciətin ediləcəyi istisna edilməyən məqamlardandır;

Paşinyanın Ermənistan daxilində mövqelərini gücləndirmək istiqamətində atacağı addımlar və regionda maraqlı tərəflərin “zəif bənd” kimi gördüyü İrəvan üzərindən prosesə müdaxilə cəhdləri razılaşmaların icrasına, ümumilikdə hadisələrin inkişafına təsir edə biləcək amillərdir”.

***Seymur Əli***

25_27 IYUI-QARA.qxd 7/10/2025 10:28 PM Page 5



# İlham Əliyevin BƏƏ-yə səfəri başa çatdı



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri iyulun 10-da başa çatıb.***

"Unikal" xəbər verir ki, Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin ədliyyə naziri Abdulla bin Avad Əl-Nueymi və digər rəsmi şəxslər yola saldılar.

# Vətəndaş məmnunluğu təmin edilsin - Nazirdən tələb

***Daxili işlər naziri Vilayət Eyvazov polis əməkdaşlarından vətəndaş məmnunluğunun təmin edilməsi, qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.***



"Unikal" xəbər verir ki, bu barədə Vilayət Eyvazov Daxili İşlər Nazirliyində keçirilən 6 ayın yekunlarına dair kollegiya iclasında danışıb.

Nazir Vilayət Eyvazov qeyd edib ki, polislərdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

# Əli Əsədov pakistanlı nazirlə müzakirə apardı



***Azərbaycanın Baş naziri Əli Əsədov iyulun 10-da Pakistan İslam Respublikasının federal hüquq və ədliyyə naziri Azam Nazir Tarar ilə görüşüb.***

Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, görüşdə Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji tərəfdaşlığın uzun illərə söykənən dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı bildirilib.

Dövlətlərarası münasibətlərin bütün sahələrdə yüksək inkişaf dinamikasından məmnunluq ifadə olunub.

İki ölkənin məhkəmə-hüquq sistemləri arasında əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib, xüsusilə də ədliyyə nazirlikləri arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində hüquqi sahədə səmərəli tərəfdaşlığın həyata keçirildiyi vurğulanıb.

Görüş zamanı Azərbaycan ilə Pakistan arasında müxtəlif istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

# ABŞ-dan Naxçıvana gedən yolla bağlı rəsmi açıqlama

***ABŞ Dövlət Departamenti Donald Tramp administrasiyasının Ermənistan və Azərbaycana Cənubi Qafqazda kommunikasiyaların açılmasını təklif etməsi ilə bağlı xəbərlərə cavab verib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

ABŞ Dövlət Departamentinin mətbuat xidməti bildirib ki, mətbuatda dərc olunan xəbərlə bağlı onlarda məlumat yoxdur: "Birləşmiş Ştatlar Cənubi Qafqazda sülh və sabitliyin möhkəmləndirilməsi səylərini dəstəkləyir. Bizim bu press-relizlərlə bağlı təqdim edəcəyimiz məlumat yoxdur".

Daha əvvəl Karneqi Fondunun analitiki Olesya Vardanyan iki xarici diplomata istinadən qeyd etmişdi ki, ABŞ prezidenti Donald Tramp administrasiyası Azərbaycanının digər ərazilərini Naxçı-




vanla Ermənistan ərazisindən birləşdirən yol ilə bağlı İrəvan və Bakıya təklif təqdim edib.

***Ağarza Elçinoğlu***

# "Tərlan - 2025" PUA təlimi başa çatdı



***Azərbaycan və Qazaxıstan hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən Pilotsuz Uçuş Aparatları (PUA) sahəsində "Tərlan - 2025" birgə taktiki-uçuş təlimi uğurla başa çatıb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, təlim çərçivəsində qarşıya qoyulmuş tapşırıqlar hər iki ölkənin hərbi qulluqçuları tərəfindən dəqiqliklə yerinə yetirilib. Plana uyğun olaraq, mərhələlər üzrə qarşılıqlı əlaqədə icra olunan fəaliyyətlər zamanı iştirakçılar yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdiriblər.

Təlim zamanı taktiki və əməliyyat PUA-larının uçuşları həyata keçirilib. Əraziyə çıxarılan mini PUA-lar vasitəsilə əvvəlcədən aşkar edilmiş hədəflər barədə detallı kəşfiyyat məlumatları toplanıb, daha sonra isə əməliyyat-taktiki PUA-lar vasitəsilə həmin hədəflər zərərsizləşdirilib.

Təlim rəhbərliyi şəxsi heyətin peşəkarlığını və hazırlıq səviyyəsini yüksək qiymətləndirib.

Sonda "Tərlan - 2025" birgə taktiki-uçuş təlimində xüsusi fərqlənən Azərbaycan və Qazaxıstan hərbi qulluqçuları "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı və qiymətli hədiyyələrlə mükafatlandırılıb, iştirakçılara sertifikatlar təqdim olunub, xatirə şəkli çəkdirilib.

# AQTA yanında Məşvərət Şurasının növbəti iclası keçirildi

***Dövlət-özəl sektor əməkdaşlığının möhkəmləndirilməsi məqsədi ilə yaradılan Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yanında qida sektoru üzrə Məşvərət Şurasının növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Məşvərət Şurasının üzvləri ilə ölkəmizdə qida təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan mövzular müzakirə olunub.

İclasda qida məhsullarının satışı bazarları qarşısında duran məsələlər, kənd təsərrüfatı məhsullarının satış və qablaşdırılması üçün mexanizmin formalaşdırılması, heyvanların identifikasiyası, ixrac olunan fitosanitar məhsulların beynəlxalq tələblərə uyğunluğu, pestisidlər və aqrokimyəvi maddələrin izlənmə sisteminin qurulması və digər aktual məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Həmçinin təhsil müəssisələri və xəstəxanalarda qida normalarının tətbiqi ilə bağlı qanunvericiliyin tələbləri Şura üzvlərinin diqqətinə çatdırılıb. Laborator müayinələrin müddəti və risklərin qiymətləndirilməsi, müəssisələrdə HACCP sisteminin tətbiqi, dönər emalı və satışı müəssisələrində mövcud məsələlər və onların həlli, eyni zamanda istehlakçıların maarifləndirilməsi zamanı birgə fəaliyyətlərin həyata keçirilməsi üçün təkliflər nəzərdən keçirilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Rəşad Nəbiyev BTİ-nin Baş katibi ilə görüşdü

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Cenevrədə Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Baş katibi Dorin Boqdan Martin ilə görüş keçirib.***

"Unikal" xəbər evrir ki, görüşdə 18-27 noyabr tarixlərində Bakıda keçirilməsi nəzərdə tutulan Ümumdünya Telekommunikasiya İnkişafı Konfransına hazırlıq, görülən işlər və bu istiqamətdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Eyni zamanda innovasiya imkanlarını artırmaq, dinamik rəqəmsal ekosistemi inkişaf etdirmək üçün ölkəmizdə BTİ-nin Akselerasiya Mərkəzinin yaradılması, kibertəhlükəsizlik sahəsində BTİ-nin rəhbərlik etdiyi təlim proqramları və təcrübə mübadiləsi barədə fikir mübadiləsi aparılıb.



25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 6



# Əli Əsədov BMMT-nin sessiyasında İlham Əliyevin müraciətini oxuyub

***İyulun 10-da Bakıda Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası işə başlayıb.***

Nazirlər Kabinetindən "Unikal"a verilən xəbərə görə, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov tədbirdə iştirak edib. Açılış mərasimində Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə deyilir:

təmin edən beynəlxalq səviyyədə ixtisaslaşmış yeganə hökumətlərarası təşkilat olaraq Beynəlxalq Mülki Müdafiə Təşkilatı aparıcı və unikal rolu xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq Mülki Müdafiə Təşkilatı milli strukturların gücləndirilməsinə dəstək göstərir, müxtəlif inkişaf səviyyəsinə və resurslara malik ölkələr arasında təcrübə və bilik mübadiləsini asanlaşdırır, mülki müdafiə xidmətləri arasında həmrəylik və tərəfdaşlıq ruhunu möhkəmləndirir.

Bu gün burada böhranlara və fəlakətlərə qarşı mübarizə-

Bu gün mülki müdafiə mexanizmlərinin inkişafı üçün universal platforma olan Beynəlxalq Mülki Müdafiə Təşkilatının beynəlxalq arenada davamlılığını və nüfuzunu gücləndirmək üçün bütün üzv dövlətlərin səylərinin səfərbər olunması və birgə fəaliyyətinin təmin edilməsi strateji əhəmiyyət daşıyır.

Müasir dünyamızda artan risklər fonunda dövrün çağırışlarına cavab verə bilən, ona uyğunlaşan, beynəlxalq həmrəylik və qarşılıqlı yardımın effektiv aləti kimi güclü Beynəlxalq Mülki Müdafiə Təşkilatının olması olduqca labüddür.



"Hörmətli sessiya iştirakçıları!

Sizi Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının açılışı münasibətilə Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Dünyada insanların təhlükəsizliyi, əmin-amanlığı və rifahının təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edən məsələlərə həsr olunmuş bu yüksək səviyyəli beynəlxalq tədbirə ev sahibliyi etməkdən məmnunluq duyuruq.

Bu sessiyanın Azərbaycanda keçirilməsi ölkəmizin qlobal təhlükəsizlik, fəlakət risklərinin azaldılması və mülki müdafiə məsələlərinə verdiyi önəmin bariz nümunəsidir.

Hazırkı sessiya bəşəriyyət üçün həlledici bir məqama - təbii və texnogen fəlakətlərin sayının artdığı, iqlim böhranlarının dərinləşdiyi, dövlətlərin yeni təhlükələr və çağırışlarla üzləşdiyi və mülki müdafiə sistemlərinin ciddi sınaqdan keçirildiyi vaxta təsadüf edir.

Bu xüsusda, mülki müdafiə və əhalinin mühafizəsi sahəsində çoxtərəfli əməkdaşlığın inkişafını təşviq edən və bu sahədə qlobal koordinasiyanı nin ön cərgəsində duran, həyatını cəmiyyətə xidmətə həsr etmiş, müxtəlif ölkələri təmsil edən peşəkarlar və mütəxəssislər toplaşıblar.

Mən qlobal mülki müdafiə, o cümlədən fövqəladə hallara hazırlıq, fəlakətlərə reaksiya sahəsində dost ölkələrin aidiyyəti orqanları arasında dinamik surətdə inkişaf edən tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirirəm.

Azərbaycan mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm verir. Beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi ölkəmiz insan həyatının müdafiəsinə, ətraf mühitin və infrastrukturun qorunmasına yönəlmiş qlobal təşəbbüslərin formalaşmasında və həyata keçməsində yaxından iştirak edir.

Azərbaycanın ev sahibliyi etdiyi bir sıra mühüm beynəlxalq tədbirlər, xüsusilə də keçən il baş tutmuş COP29 və gələn il keçiriləcək Dünya Şəhərsalma Forumu bəşəriyyəti narahat edən ən aktual problemlərin həllinə, onların fəsadlarının aradan qaldırılmasına və ümumilikdə qlobal həmrəyliyin gücləndirilməsinə xidmət edir.

Məhz bu kontekstdə, sessiya zamanı keçiriləcək Baş katib vəzifəsinə seçkilər təşkilatın gələcək inkişaf istiqamətlərinin müəyyən olunmasında həlledici mərhələ olacaqdır.

Seçkiyə təqdim olunan namizədlər arasında Azərbaycan Respublikasının nümayəndəsi də yer almaqdadır.

İnanıram ki, ölkəmizi təmsil edən nümayəndə Baş katib seçiləcəyi təqdirdə Beynəlxalq Mülki Müdafiə Təşkilatının fəaliyyətində səmərəliliyin artırılması, şəffaflığın təmin olunması və hesabatlı idarəçilik prinsiplərinin möhkəmləndirilməsi, beynəlxalq tərəfdaşların tam etimad bəslədiyi, çevik və effektiv bir təşkilati modelin formalaşdırılması istiqamətində ardıcıl və prinsipial səylər göstərəcəkdir.

Əminəm ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası beynəlxalq mülki müdafiə sisteminin daha da möhkəmlənməsinə və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə töhfə verəcəkdir. Sizə ən xoş arzularımı yetirir, tədbirin işinə uğurlar arzulayıram".

# Əhali Prezidentin fəaliyyətini yüksək qiymətləndirir - Sorğu



***Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətinə ictimai münasibətin öyrənilməsi məqsədilə ölkə vətəndaşları arasında rəy sorğusu həyata keçirib.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, sorğu çərçivəsində 2025-ci ilin ilk altı ayı ərzində Prezidentin genişmiqyaslı fəaliyyət xronikasında ön plana çıxan və xüsusi aktuallıq kəsb edən bir sıra istiqamətlər seçilərək ictimai rəy sorğusu əsasında dəyərləndirilib.

Sorğunun nəticələri Prezidentin fəaliyyətinin ümumilikdə yüksək qiymətləndirildiyini göstərib. Xüsusilə Böyük qayıdış və bərpa-quruculuq, hərbi quruculuq, xarici siyasət, hərbi quruculuq və milli təhlükəsizlik sahəsində fəaliyyətə geniş ictimai dəstək ifadə olunub.

Sorğunun nəticələrinə əsasən, Prezidentin xarici siyasət sahəsində fəaliyyətini respondentlərin 67.8%-i çox yaxşı, 24.4%-i əsasən yaxşı olaraq qiymətləndirib. Sorğu iştirakçılarının 1.0%-i bu sahədə fəaliyyəti əsasən pis, 0.6%-i çox pis kimi dəyərləndirib. Respondentlərin 6.2%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Nəticələr Azərbaycanın xarici siyasət kursuna - xüsusən regional əməkdaşlıq, geosiyasi balanslaşdırma və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində fəaliyyətə yüksək ictimai dəstəyin olduğunu göstərib.

Tədqiqat kəmiyyət metodologiyası əsasında aparılıb. Topludan nümunənin seçilməsində ehtimallı seçmənin çoxpilləli stratifikasiya üsulundan istifadə olunub. Seçmə çərçivəsi respondentlərin gender balansı, təhsil səviyyəsi və yaş bölgüsü rəsmi statistikaya uyğun olmaqla müəyyən edilib.

Sorğularda yaşı 18 və yuxarı olan 1200 respondent iştirak edib.

Sorğunun sahə işi (məlumatların toplanılması) 2025-ci ilin 10 iyun - 18 iyun tarixləri arasında icra edilib. Məlumatların toplanılmasında kompüter dəstəkli fərdi müsahibə (CAPI) üsulundan istifadə olunub.

Sorğular Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonlarını əhatə edib. Naxçıvan və Şərqi Zəngəzur iqtisadi rayonları sorğuda əhatə olunmayıb. Sorğular 7 respublika tabeli şəhər, 34 rayon olmaqla ümumilikdə ölkənin 41 rayon və şəhərində keçirilib.

Sahə işinə başlamamışdan əvvəl intervüyerlər təlimatlandırılıb. Həmçinin onlar tərəfindən bütün müsahibələrdə anonimlik təmin edilib, respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı, nəticələrin yalnız tədqiqat məqsədləri üçün istifadə ediləcəyi barədə məlumatlar verilib.

Sorğuda iştirak edənlərin sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 3% təşkil edib.

# Azərbaycanlı "Vaqner"çilər həbs olundu - DTX-dən əməliyyat

***Səbail Rayon Məhkəməsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) istintaqı aparılan cinayət işi üzrə 1991-ci il təvəllüdlü Əliyev Ramil Ramiz oğlu və 1974-cü il təvəllüdlü Həsənov İsmayıl Buludxan oğlunun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, iş materiallarından məlum olur ki, DTX tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilərək ələ keçirilib və istintaqa təqdim olunmuş həmin şəxslər tərəfindən xaricdə və Azərbaycanda müxtəlif cinayət əməlləri törədilib.

Belə ki, onlar xarici ölkə ərazisində qəsdən adam öldürmə, şəxsiyyət əleyhinə digər ağır və xüsusilə ağır cinayətlər törətdiklərinə görə məhkum olunaraq həmin ölkənin cəzaçəkmə müəssisələrində olduqları zaman "Vaqner" silahlı birləşməsinin rəhbəri olmuş Y.Priqojin tərəfindən şəxsən seçilərək cəzaların icrasından yayındırılıb və razılaşdırılmış vəsait müqabilində müxtəlif hərbi əməliyyatlara cəlb ediliblər.

Onlar müxtəlif ölkələrin ərazilərində odlu silahlardan və partlayıcı vasitələrdən istifadə etməklə təlim və döyüş əməliyyatlarında iştirak etmiş, digər Azərbaycan vətəndaşlarının da ölkə hüdudlarından kənarda belə əməllərə təhrik edilməsi istiqamətində fəaliyyət göstəriblər.

Hazırda cinayət işi üzrə Ramil Əliyev və İsmayıl Həsənovun, eyni zamanda Azərbaycan və digər xarici ölkə vətəndaşlarına qarşı digər cinayət əməlləri ilə bağlı araşdırmalar aparılır.

Məhkəmə baxışının nəticələrinə əsasən Ramil Əliyev və İsmayıl Həsənov barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 7



## BƏƏ-nin sülh diplomatiyasında rolu: Cənubi Qafqazda neytral platforma cəhdi

***Azərbaycan və Ermənistan liderlərinin Birləşmiş Ərəb Əmirliklərində baş tutan görüşü təkcə ikitərəfli münasibətlər baxımından deyil, eyni zamanda bu görüşə ev sahibliyi edən BƏƏ-nin artan diplomatik ambisiyaları və geosiyasi rol baxımından diqqətəlayiq hadisədir.***

Ərəb dünyasının iqtisadi güc mərkəzlərindən biri olan BƏƏ-nin Cənubi Qafqazda vasitəçi və ya neytral platforma kimi çıxış etməsi, regionun ənənəvi aktorlarından fərqli olaraq, yeni balans axtarışlarının göstəricisidir.

BƏƏ-nin bu təşəbbüsünün bir neçə strateji izahı var.

Birincisi, Əbu-Dabinin neytral və praqmatik xarici siyasəti ona qarşıdurma tərəfləri üçün etibarlı və qərəzsiz görüş məkanı imici qazandırır.

İkincisi, Körfəz ölkələrinin Cənubi Qafqazdakı iqtisadi maraqları getdikcə artır. Enerji, logistika və kommunikasiya xətləri üzərində mövcudluq bu maraqları daha da gücləndirir.

Nəhayət, BƏƏ-nin bu sahədə fəallaşması onun beynəlxalq diplomatiyada yalnız regional deyil, qlobal vasitəçi kimi tanınmaq istədiyini göstərir.

Azərbaycan və Ermənistan arasında dialoq üçün BƏƏ-nin seçilməsi həm də Avropa İttifaqı və Rusiyanın vasitəçiliyində müşahidə olunan tıxacların fonunda alternativ platformaların aktuallaşdığını sübut edir. Bu, bir tərəfdən bölgə ölkələrinin daha çox müstəqil diplomatik manevr imkanları axtardığını, digər tərəfdən isə Qərb və Rusiya arasında balanslı davranmağa çalışan dövlətlərin ortaya çıxdığını göstərir.

Əgər BƏƏ bu rolu davamlı şəkildə möhkəmləndirə bilsə, gələcəkdə Cənubi Qafqaz üçün təkcə iqtisadi deyil, həm də diplomatik dəyəri olan tərəfdaş statusu qazana bilər. Bu isə regional dinamikanın dəyişdiyini və sülh gündəliyinin daha geniş geosiyasi kontekstdə formalaşdığını göstərən mühüm siqnaldır(bakıvaxti.az).

## Hökumə Əliyevaya həsr olunan film gələn ay təqdim olunacaq

***Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Ziya Şıxlinskinin Milli Qəhrəman Hökümə Əliyevaya həsr olunmuş "Hökümə - kədərim mənim" adlı sənədli filmi avqustda təqdim olunacaq.***

"Unikal" xəbər verir ki, bu barədə İttifaq məlumat yayıb.

Bildirilib ki, layihənin rəhbəri AKİ sədri, Xalq artisti Rasim Balayev, rejissor Ziya Şıxlinski, operator Yuri Varnovski, montaj rejissoru Mübariz Nağıyev, koordinator Əli İsa Cabbarovdur.

## "Azərbaycan Dəmir Yolları"nda yeni mətbuat katibi - Təyinat

***"Azərbaycan Dəmir Yolları" QSC-nin Kommunikasiya departamentinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsinə yeni təyinat olub.***

Bu vəzifəyə şöbənin aparıcı mütəxəssisi Bəxtiyar Hacıyev təyin edilib. O bildirib ki, yeddi aya yaxın idi ki, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsi ona həvalə olunmuşdu. "İyulun 6-da azadlığına qovuşmuş Xankəndi şəhərində jurnalistlərə açıqlama verərkən jurnalistlərə özümü şöbə müdiri kimi təqdim etmişəm. Hesab edirəm ki, təyinatımı elan etmək üçün bundan gözəl yer ola bilməz. Mənim 15 illik jurnalist karyeram var. İndi də bu sahəyə çox yaxınam, media nümayəndələri ilə işləyirəm. Həmkarlarımla bundan sonra da sıx işləməyə davam edəcəyəm", - deyə o qeyd edib.

# "Hüquqi maneə aradan qaldırıldıqdan sonra sülh müqaviləsini imzalamaq olar"

## Aydın Mirzəzadə: "Azərbaycan və Ermənistan qonşu dövlətlərdir, münasibətlər qonşu dövlətlərə xas olan səviyyədə olmalıdır"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla keçirdiyi görüşün əhəmiyyətindən, bu mühüm görüşün Birləşmiş Ərəb Əmirliklərində keçirilməsindən, sülh müqaviləsinin imzalanması istiqamətində hansı addımların atılacağından və sərhədin delimitasiyası prosesi ilə bağlı görüləcək işlərdən danışıb.***



***-Aydın müəllim, Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü keçirilib. Görüşdə Azərbaycan-Ermənistan dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. Bu görüşün əhəmiyyətini necə qiymətləndirirsiz?***

-Vaxtaşırı belə görüşlərin keçirilməsi mövqeləri yaxınlaşdırmağa, eyni zamanda təklifləri bir daha nəzərdən keçirməyə imkan verir. İlk verilən məlumatlar onu göstərir ki, tərəflər bir sıra məsələlərdə mövqelərini yaxınlaşdırıblar və artıq danışıqların işçi qrupları səviyyəsinə keçməsi barəsində razılığa gəliblər. Bu o deməkdir ki, hər iki tərəfin arzuladığı sülh müqaviləsinə tərəf bir addım da atıldı. Hələ Ermənistan tərəfinin həll edəcəyi müəyyən məsələlər var. Bu, onun konstitusiyasında Azərbaycan ərazilərinə olan iddiaların aradan qaldırılması, ATƏT-in Minsk qrupunun buraxılmasıdır. İstərdik ki, Ermənistan bunu mümkün qədər tez etsin ki, onun da vaxtaşırı qaldırdığı sülh müqaviləsi məsələsi həll edilsin. Bundan sonrakı proseslər Ermənistanın məsələyə nə dərəcədə səmimi yanaşacağından asılıdır.

***-Mühüm görüşün Birləşmiş Ərəb Əmirliklərində keçirilməsi diqqətçəkən məqamlardan biri idi...***

-Bu görüş üçün təkliflər çox olur. Amma əhəmiyyətli olan görüş keçirən ölkənin Azərbaycana olan xoş münasibəti, suverenliyinə hörmətlə yanaşmasıdır. Görüşün orada keçirilməsi eyni zamanda Azərbaycanla həmin ölkə arasında münasibətlərin daha da dərinləşməsidir. Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanla çox yaxşı münasibətləri var. Bu ölkənin liderinin bir müddət əvvəl Azərbaycana səfəri olmuşdu. Azərbaycan Prezidenti orada olarkən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşdü. Şübhəsiz ki, bu təkcə protokol görüşü deyildi. Eyni zamanda iki ölkə arasındakı münasibətlərin bir daha nəzərdən keçirilməsi məsələsi idi. Görüşün orada keçirilməsi təklifi gəldikdən sonra Azərbaycan buna böyük maraqla yanaşdı və dostlarımızın vasitəçiliyini yüksək qiymətləndiririk.

***-Dövlət rəhbərlərinin görüşündə ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb. Bu baxımdan sülh müqaviləsinin nə zaman imzalanacağını demək olar?***

-Liderlər həm nümayəndə heyətləri ilə həm də təkbətək görüşdülər. Görüşün iki raundda, ümumilikdə 5 saat keçməsi onu göstərir ki, müəyyən məsələlərdə razılaşma var. Bu, təqdirəlayiq hadisədir. Azərbaycan və Ermənistan qonşu dövlətlərdir, münasibətləri qonşu dövlətlərə xas olan, normal münasibətlər səviyyəsində olmalıdır. İşçi qrupların liderlərin tapşırığı əsasında məsələləri hazırlaması gələcəkdə yeni görüşün olmasına, zamanı yetişəndə, Ermənistan tərəfindən hüquqi maneçiliklər aradan qaldırıldıqdan sonra sülh müqaviləsini imzalamaq olar.

***-Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Qarşıdakı dövrdə sərhədlərin delimitasiyası ilə bağlı hansı işlər görüləcək?***

-Komissiyalar bu istiqamətdə 5-ci ildir ki, işləyir və müəyyən nəticələr var. Amma daha geniş və inamlı işləməsi üçün mütləq sülh müqaviləsi imzalanmalıdır. Sülh müqaviləsi üçün Ermənistan konstitusiyasını dəyişməlidir. Bu mövqe bir daha Ermənistanın diqqətinə çatdırıldı. Sülh müqaviləsi üçün maneələr aradan qaldırıldıqdan və müqavilə imzalandıqdan sonra delimitasiya məsələsində də razılığa gəlmək mümkün olacaq. Necə ki, Qazax istiqamətində 4 kəndin Ermənistan tərəfindən geri qaytarılması və 13 kilometr sərhədin qurulması göstərir ki, tərəflər ümumi razılığa gələ bilərlər. İşçi qrupları liderlər tərəfindən tapşırıqlarını alıblar. Şübhəsiz ki, görüləcək işlər barəsində ölkə rəhbərlərinə məlumat verəcəklər və onların tapşırıqları əsasında işlərini davam etdirəcəklər. Əlbəttə gözləntilər böyükdür. Reallıq Ermənistanın nə dərəcədə səmimi və məsuliyyətlə əldə edilən razılaşmalara uyğun hərəkət edəcəyindən asılıdır.

***Anar Kəlbiyev***

# Dərman bazarındakı monopolistlərin ağlasığmaz oyunları

## Qonşu ölkələrdəki bir dərman bizdə niyə 3-5 dəfə baha satılır? - Hamını düşündürən sual!

***2025-ci ilin ilk 5 ayında pərakəndə ticarət dövriyyəsi 3.8 faiz artaraq 23 milyard 341 milyon manat olub. Bu, məhz həmin məbləğdə mal və xidmətlərin istehlakçılara satılması anlamına gəlir. Pərakəndə ticarət dövriyyəsinin strukturunda diqqət çəkən əsas məqamlardan biri əczaçılıq məhsulları və tibb ləvazimatlarına çəkilən xərclərdir. Bunu yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov sosial şəbəkə hesabında yazıb.***

O bildirib ki, bu xərclər əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18.2 faiz artaraq, 598 milyon manatdan çox olub: "Əczaçılıq məhsullarının alınmasına çəkilən xərclərdə artım həmin dövrdə pərakəndə ticarətin struktrunda rekord səviyyədə olub və bütün digər istiqamətləri üstələyib. Digər tərəfdən, həmin dövrdə yalnız bu istiqamət üzrə xərclərdə ikirəqəmli artım faizi qeydə alınıb. Bütün digər xərclər üzrə artım faizi bir rəqəmlidir.

### Əczaçılıq məhsulları üzrə xərclərimizdə kəskin artım nə ilə bağlıdır?

Deputatın fikrincə, əczaçılıq məhsulları üzrə xərclərin artması dərman preparatlarının qiymətlərindəki dəyişikliklər və eləcə də, tibbi xidmətlərə tələbin yüksəlməsi ilə bağlıdır: "Dövlət Statistika Komitəsinin məlumatına əsasən, istehlak malları və əhaliyə göstərilən ödənişli xidmətlər üzrə tibbi xidmətlərin qiyməti həmin dövrdə 4.5 faiz yüksəlib. Tibbi təyinatlı malların qiymətində də artım qeydə alınıb. Bu isə o deməkdir ki, tələbin artması ilə yanaşı, tibbi xidmətlərdə qiymət artımları da davam edib".

Bayramov deyib ki, əczaçılıq məhsulları üzrə istehlak xərclərinin ailə büdcəsinə xüsusi təsirlərini nəzərə alsaq bu istiqamətdə qiymət tarazlığının qorunması çox vacibdir: "Doğrudur, dərman pereparatlarının qiymətləri tənzimlənir. Amma bununla yanaşı, istehlak xərclərinin də optimallaşdırılması önəmlidir. Digər tərəfdən, qiymət və xərc tarazlığı üçün yerli istehsalın genişləndirilməsi və idxalın minimumlaşdırılması da vacibdir".

### Dərdə salan dərman qiymətləri!

Bəzi tibbi ekspertlər əczaçılıq məhsulları üzrə xərclərin kəskin artmasının səbəblərini qlobal proseslərlə əlaqələndirirlər. Məsələn, Müşfiq Hüseynov deyib ki, ən böyük səbəb logistik xidmətlərin qiymətinin bir neçə dəfə artması ilə əlaqədardır: "İkincisi, xammal bazarında baş verən 2-3 qat bahalaşma idi. Bu tendensiya dünyanın hər yerində var. Tendensiya 2024-ci ilin son 6 ayına kimi davam edib. Niyə? Əsas səbəb husilərlə İsrail arasında olan Qırmızı dənzdəki gərginlik idi. Çünkü gəmi daşımaları çox bahalaşdığından konteynerlərin daşınma xərci də artdı. Gəmilər daha uzun yol qət etdiyindən qiymətləri birdən-birə 5-10 min dollara qədər qaldıra bildilər. Bu da yenidən xammalın qiymətinə təsir elədi. Təcili daşımalarda isə təyyarədən istifadə etsək fantastik qiymətlə üz-üzə gəlirik" (Qaynarinfo).



Adı çəkilən ekspert hazırda dərmanların qiymətlərinin Avropa, Amerikada da qalxdığını deyib: "Bəzən sual verirlər ki, bəs Türkiyədə niyə qiymətlər qalxmır? Çünki Türkiyədə dövlət bu işə dotasiya verir. Yəni, qarşılığını ödəyir, bu səbəbdən də qiymətlər qalxmır. Əsas səbəb logistik xidmətlər və xammalın alış dəyərinin qalxmasıdır".

M.Hüseynovun iddiasına görə, əvvəllər xammal 2 dollara başa gəlirdisə, indi bu rəqəm 2, 3, yaxud 5 dollar olub: "Buna görə qiymət artımı təbiidir... Azərbaycan idxaldan asılı bir ölkədir. Burada demək olar ki, heç nə istehsal olunmur. 98 faiz idxaldan asılıyıq. Bu da o deməkdir ki, Azərbaycanda valyutanın dəyəri artmadığına görə, ancaq ölkəyə girişin qiyməti qalxıb. Qiymətin qalxmasının Azərbaycanla əlaqəsi yoxdur".

### Bəs monopolistlər?!

Lakin reallıq məsələnin heç də bu cür düşünənlər qədər sadə olmadığını ortaya qoyur. Lakin bu barədə danışmazdan öncə bəzi başqa rəylərlə tanış olaq.

Tanınmış iqtisadçı ekspert Rövşən Ağayev deyir ki, uzun müddətdir ailə üzvlərindən birinin müntəzəm qəbul elədiyi bir dərmanı həkim Türkiyədən gətirməyi məsləhət görüb: "Səbəbini həm keyfiyyət, həm də qiymət fərqi ilə izah elədi. Təxminən 10 gün əvvəl bir tanış alıb gətirdi və qiymət fərqi həqiqətən böyükdür. Burda biz son 6 ayda həmin dərmanı 13,5 manata, həm də çox çətinliklə ala bilirik. Hər aptek bizə bu dərmanı vermir. Bəzən şəhərdə xeyli aptek gəzərək, xüsusi reseptlə ala bilirəm, Türkiyədən isə heç bir resept olmadan, 5,4 manata".

Jurnalist Elçin Rüstəmli isə qeyd edir ki, bu ilin 5 ayında əhali dərmanlara 600 milyon manata yaxın pul xərcləyib və həmin rəqəm ötən ilin müvafiq dövrü ilə müqayisədə 18.2 faiz yüksəkdir: "Müqayisə üçün yazaq ki, Türkiyədə artım faizi 12, Qazaxıstanda 9.5, Gürcüstanda 7.5 faiz təşkil edib. Göründüyü kimi Azərbaycanda postovet ölkələri ilə müqayisədə 2 dəfə çox artım qeydə alınıb. Bu ölkələrin heç birinin dərman bazarı monopolist şirkətlərin nəzarətində deyil. Azərbaycanda isə 3-4 şirkət bazara nəzarət edir və qiymətləri özləri müəyyənləşdirir. Ona görə Azərbaycanda dərman preparatları çox bahadır. Monopolistlər göz-görəti əhalinin ən zəruri ehtiyaclarını od qiymətinə satmaqla insafsızcasına varlanırlar".

Bir az əvvələ qayıdaq. 2023-cü ildə tarixçi professor Ədalət Tahirzadə dərman qiymətindəki bahalıqdan yazmışdı: "Türkiyədən bizim pulla 3 manat 20 qəpiyə aldığım dərmanı bu gün Bakıda "İstanbul" aptekində 39 manat 40 qəpiyə aldım".

Deputat Əli Məsimli isə mövzu ilə bağlı parlamentin kürsüsündən belə səslənmişdi: "Türkiyədə qiyməti 3,2 manat olan dərman Azərbaycanda 39,4 manata satılır. Bunun qarşısını düşünürəm ki, Rəqabət Məcəlləsinin qəbul olunması alacaq".

Rəqabət Məcəlləsi qəbul edildi və qüvvəyə mindi.

Lakin görünən odur ki, çox şey dəyişməyib: hələ də bizdə bir çox dərmanları bəzi qonşu ölkələrlə müqayisədə bir neçə dəfə baha almaq məcburiyyətindəyik. Və eyni zamanda o da aydınlaşır ki, bu cür fantastik fərqi hansısa qlobal proseslərlə izah etmək mümkün deyil.

### İnhisarçılara vacib suallar

Əlbəttə ki, müasir dünyanın reallıqlarını nəzərə aldıqda nəinki qlobal, hətta regional proseslərin belə bazarlar, daha doğrusu, bazarlardakı qiymətlərə neqativ (ya da pozitiv!) təsirini inkar etmək ağılsızlıq olardı.

Lakin bizim cəmiyyəti düşündürən haqlı bir sual var: motivindən (siyasi, iqtisadi, hərbi və s.) asılı olmayaraq hər hansı beynəlxalq böhran səbəbindən bir məhsulun qiyməti dünya bazarlarında bahalaşarkən bizim yerli bazarda da bahalaşdığı halda, niyə qlobal ucuzlaşma baş verdikdə bizdə ucuzlaşmır? Ərzaq məhsullarında da eyni vəziyyətdir, əczaçılıq məhsullarında da, digər istənilən məhsulda da...

Digər tərəfdən, məsələ yalnız dərmanların qonşu ölkələrlə müqayisədə baha olmasında deyil. Belə ki, iki ay öncə "Bizim.media" yazmışdı ki, Azərbaycanda bəzi apteklərdə eyni dərmanlar fərqli qiymətlərə satılır. Bu dərmanların tərkibində və göstəricilərində fərq olmasa da, qiymətləri hətta 10-15 manat arasında dəyişir. Təsəvvür edirsiniz, 10-15 manat! Bu səbəbdən vətəndaşlar bir neçə aptekə üz tutmağa və dərmanı daha ucuz olan aptekdən almağa məcbur olur. İndi soruşuruq: maraqlıdır, bütün dərmanların qiyməti Tarif Şurasının qərarı ilə tənzimləndiyi halda, niyə bəzi dərmanlar bir aptekdə baha, digərində ucuzdur?

Bir sözlə, ölkənin dərman bazarında xüsusilə də 3-4 monopolist şirkətin əli ilə yaranan bir başıpozuqluq aydın hiss edilir, əlaqədar qurumlar isə hələ ki, problemi kənardan izləməklə məşğuldurlar, ən azından onların yazımızda sadalanan çatışmazlıqları aradan qaldırmaq üçün təsirli, səmərəli addımlarını illərdir ki, görmürük...

***Sənan Mirzə***



## "Bu müəllimlərin maaşı 2 000 manatdan artıqdır" - Emin Əmrullayev

***"Təxminən 56 mindən artıq müəllimin əməkhaqqı artırılıb".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində keçirilən "Sertifikatlaşdırma 2025: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə deyib. Nazirin sözlərinə görə, işdən azad edilmiş müəllimlərin yerinə yeni müəllimlər təyin edilmir: "Çünki həmin məktəblərdə müəllim sıxlığı mövcuddur. Hər bir müəllim bilməlidir ki, əgər məktəbdə, məsələn, 28 müəllim varsa, bu halda əməkhaqqı yüksək olmayacaq. Dərs yükü daha yüksək bal toplamış müəllimlər arasında ədalətli şəkildə bölüşdürülməlidir. Əgər bu halda müəllim əməkhaqqının niyə yüksək olmadığını soruşursa, deməli, düşünmə qabiliyyəti düzgün deyil".

"1% müəllimlərimiz var ki, onlar 34 saat dərs deyir. Həmin müəllimlərin maaşı 2 000 manatdan artıqdır", - deyən nazirin sözlərinə görə, 11% müəllim 31 saat işləyir ki, onların da maaşları 1500-2000 manat arasındadır: "33% müəllim həftədə 25 saat dərs deyir və 1000-1500 manat maaş alır. Bu, 39 296 müəllim deməkdir.41% müəllim həftədə 17 saat dərs deyir və 500-1000 manat əməkhaqqı alır. Bu qrupa 49 757 nəfər daxildir. 14% müəllim isə cəmi 8 saat dərs deyir və 500 manata qədər maaş alır. Belə müəllimlərin sayı 17 492 nəfərdir. Biz istəyirik ki, müəllim yarımştat işçi olmasın. Həftədə 5 saat məktəbə gələn adama müəllim demək, mənim fikrimcə, düzgün deyil".

"Təxminən 45 faiz müəllim gələn ildən 1000 manat və daha yüksək əməkhaqqı alacaq" - deyən nazir bildirib ki, 500 manata qədər əməkhaqqı alan müəllimlərin sayı 17 min 492 nəfər, 500-1000 manat arasında maaş alanlar 49 min 757 nəfər, 1000-1500 manat 39 min 296 nəfər, 1500-2000 manat arasında maaş alan müəllimlər 12 803 nəfər, 2000 manat və daha artıq maaş alanlar isə 399 nəfərdir.

***Ağarza Elçinoğlu***

## 40 bağça direktoru işdən çıxarılıb, 100-dən çoxuna töhmət verilib

***Bakı şəhərində uşaq bağçalarına növbədə olan valideynlərin sayı 20 minə yaxındır.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində "Sertifikatlaşdırma 2025: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə deyib.

"Lakin şəhərdə kifayət qədər yer olmadığı üçün bu tələbatı tam şəkildə ödəmək mümkün deyil. Burada əsas məsələ tənzimləmə ilə bağlıdır. Əgər bağçalardakı yerlərin sayı uşaqların sayından azdırsa, o zaman necə çalışsaq da, təxminən 20 min uşaq bağçadan kənarda qalacaq", - nazir qeyd edib.

Nazir onu da qeyd edib ki, 6 ayda 40 bağça direktoru işdən çıxarılıb, 100-dən çoxuna isə töhmət və şiddətli töhmət verilib.

# Musa Şəkiliyevi həbsə aparan sensasion səbəblər

## Qaxın icra başçısı həm kreslosunu, həm də azadlığını niyə itirdi? - 15 illik oliqarxlaşmanın acı sonluğu!

***Məlum olduğu kimi, bu il iyunun 20-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Qax Rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyat nəticəsində rayon rəhbəri Musa Şəkiliyev saxlanılıb. Onun barəsində həbs-qətimkan tədbirinin seçilməsi üçün məhkəməyə təqdimat daxil olub. Səbayel Rayon Məhkəməsində keçirilən prosesdə istintaq orqanının təqdimatına baxılıb və Şəkiliyev barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. O, qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur.***

Prezidentin iyunun 21-də imzaladığı sərəncama əsasən, Musa Şaban oğlu Şəkiliyev Qax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.



Lakin maraqlıdır ki, Qax Rayon İcra Hakimiyyətinin rəsmi saytında o, hələ də icra başçısı olaraq göstərilir. Elə bu faktın özü rayonun məsul şəxslərinin öz vəzifələrinə, onlara verilən tapşırıqlara laqeyd, başdansovdu münasibətinin göstəricisidir.

Biz isə konkret olaraq Musa müəllimin niyə həm kreslosunu, həm də azadlığını itirməsinin üzərində dayanmaq istəyirik.

Hazırda 66 yaşı olan Şəkiliyev Qax Rayon İcra Hakimiyyətinin başçısı postuna 2010-cu ildə təyin edilmişdi. Həmin vaxtadək isə o, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentində direktor müavini vəzifələrində işləyirdi.

Şəkiliyevin qəfildən, gözlənilməz şəkildə baş verən karyera yüksəlişindəki enişin 2021-ci ildən etibarən sürətləndiyi deyilir. Buna səbəb isə onun həmin vaxt şəhid polkovnik Sadiq Məmmədovun ailəsinə qarşı hörmətsizliyi olmuşdu. Bu barədə sosial şəbəkədə paylaşım edən müğənni Vüqar Muradov yazmışdı: "Qaxın İcra başçısı Musa Şəkiliyev, ya Qax camaatına dəyər ver, problemlərini həll et, şəhidin ailəsinə, qazilərə sahib çıx, ya da şələ-şüləni yığışdır, rədd ol get tutduğun vəzifədən. Sən oğullarını müharibədə gizlətdin, amma Sadiq canını qoydu vətən uğrunda. Sən qaxlıların bir nömrəli düşmənisən. Sənə bütün qaxlılar nifrət edir. Şəhidimin ayaqqabısında olan qeyrət sənin... "Əvvəl necə kasıb yaşamısınız, indi də elə yaşayın". Bu sözü yataqxanada ailəsi, üç uşağı qalan şəhid polkovnik-leytenant Sadiq Məmmədovun ailəsinə deyibg" Müğənni iddia etmişdi ki, Şəkiliyev şəhid ailələrinə, qazilərə dövlətin ayırdığı pulları mənimsəyib.

Lakin həmin vaxt sabiq icra başçısının əlindəki müəyyən imkanları işə salaraq bu qalmaqalın üstünü örtdüyünə dair şübhələr var.

Yeri gəlmişkən, Şəkiliyevin rayondakı şəhid ailələri və qazilərə laqeyd münasibəti ilə bağlı yenə 2021-ci ildə başqa bir fakt da ortaya çıxmışdı. Qeyd edək ki, yalnız 44 günlük Vətən müharibəsində Qax rayonundan 29 nəfər şəhid olub. Onlardan biri də Qapıçay kəndindən olan Şəhid Samsun Babayevdir. Şəhid ailəsinin yaşadığı evlə bağlı 4 il öncəki görüntülər cəmiyyətdə və mediada böyük rezonans yaratmışdı. Məlum oldu ki, ailə gildən tikilmiş evdə yaşayır, uşaqlar torpaq döşəmədə yatır, evin damı uçmaq təhlükəsi ilə üzləşib, dövlətin ayırdığı vəsaitlər bir yana qalsın, şəxsi sərvəti belə başından aşan (bu barədə az sonra danışacağıq) Şəkiliyev isə şəhid ailəsinə heç bir diqqət və qayğı göstərmir.

2024-cü il mayın 20-də Şəkiliyevlə bağlı növbəti skandal baş verdi: həmin gün Uzuntala kəndində keçirilən səyyar qəbul zamanı icra başçısı və onun ətrafındakı vəzifəli şəxslər kölgədə yerləşdirilmiş rahat stullarda oturduqları halda, görüşə gələn kənd sakinləri, əsasən də yaşlı insanlar günəşin altında saatlarla gözləməli olmuşdular. Daha da acınacaqlısı o idi ki, yaşlı kənd sakinləri bağçalarda istifadə olunan uşaq stullarında əyləşdiriliblər. Bu xoşagəlməz görüntü sosial şəbəkələrdə geniş yayılmış, ciddi müzakirələrə, kəskin ictimai qınağa yol açmışdı. Ölkə rəhbəri öz çıxışlarında xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin məmurların əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyi haqqında dəfələrlə xəbərdarlıq etdiyi halda Musa müəllimin belə bir davranışının yuxarı dairələrdə ona etimadı tamamilə sarsıtdığı deyilir.

Son vaxtlar isə Qax Rayon İcra Hakimiyyətinin keçirdiyi tenderlərlə bağlı müəmmalar və yerli fermerlərin artan şikayətləri Şəkiliyevlə bağlı bardağı daşıran son damla kimi qiymətləndirilir. Məsələn, mediada yer alan iddialara görə, Qax rayon İcra Hakimiyyətinin tenderlərinin ənənəvi qaliblərindən biri "RENAT-R" MMC adlı şirkət olub. Şirkət 2013-cü ildə qeydiyyatdan keçirilib. Qanuni təmsilçisi Qaxda qeydiyyatda olan Qurbanov Elşən Şövkət oğludur. Qaxın icra başçısı Musa Şəkiliyev bu şirkətə indiyədək abadlıq və təmir-tikinti işləri adı ilə 1 milyon manata yaxın dövlət satınalması yönəldib. Bundan başqa, Şəkilyevlərin tender şirkətinin qanuni təmsilçisi Qurbanov Elşən Şövkət oğlunun adı həm də Qax rayonu üzrə "DOST İş Mərkəzi" MMC-dən əməkhaqqı alan ictimai işçilərin siyahısındadır.

Bundan başqa rayondan olan 40-a yaxın fermerin şikayəti də bir müddət mətbuatda gündəm oldu. Onların bildirdiyinə görə, icra başçısı "dövlət maraqları"nı əsas gətirərək fermerlərə məxsuz minlərlə hektar torpaqları özünə məxsus MMC-yə verib.

Nəticə etibarilə isə Şəkiliyev Qaxa rəhbərlik etdiyi 15 il ərzində fantastik dərəcədə varlanıb, ölkənin ən zəngin oliqarx-məmurlarından birinə çevrilib. Bəhs olunan dövrdə onun müxtəlif vəzifələrə təyinatları rüşvət qarşılığında apardığı, rayona ayrılan pulları mənimsədiyi, eləcə də qulluq mövqeyindən istifadə edərək, rayonda və ölkənin digər ərazilərində xeyli biznes obyektləri açdığı və mülklər aldığı bildirilir. "Bakupost"un yazdığına görə, zəngin turizm potensialına malik Qaxda bir mehmanxana, "Şəfa" istirahət və müalicə ponsionatı, "İlisu" ponsionatı, "Yaşıl park", "Ulu", "İmproteks", "Ballı bulaq", "Qafqaz", "Eden" Park hotel, "Səngər qala" istirahət mərkəzi, "El Resort" beş ulduzlu otel, "Ulu dağ" turizm mərkəzlərinin Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyevin nəzarətində olduğuna dair iddialar var.

Bütün bu iddialar, faktlar fonunda Musa Şəkiliyevin öncə həbs, ardınca vəzifəsindən azad edilməsi şübhə doğurur.

İndi əsas düşündürücü suallardan biridir: növbədə hansı oliqarxlaşmış, korrupsiyalaşmış icra başçıları var?

Həmin sualın cavabını isə növbəti sayımızda axtarmağa çalışacağıq.

***Toğrul Əliyev***

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 10



# Sabiq nazirin oğlunun milyonlarla dollarlıq peşmanlığı

## Məşhur restoranlar şəbəkəsi bir ildə heç yarım milyon manat belə gəlir gətirmədi - Böyük təəssüf!

***Bu günlərdə sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus Böyük Britaniyanın paytaxtı Londonda fəaliyyət göstərən KFC restoranlar şəbəkəsi növbəti maliyyə hesabatını açıqlayıb.***

Səhmlərinin 75%-i Anar Məmmədova məxsus olan və KFC restoranlar şəbəkəsini idarə edən "B.J.R. Foods Limited" şirkəti 2024-cü ili 169 min 185 funt-sterlinq (387 min manat) mənfəətlə başa vurub.

"B.J.R. Foods Limited" şirkətinin ötən il dövriyyəsi 41 milyon funt-sterlinq (94 milyon manat) olub və bunun 10,5 milyon funt-sterlinqini (24 milyon manat) ümumi gəlirlər təşkil edib.

Qeyd edək ki, Londonda məşhur restoranlar şəbəkəsi olan KFC françayzinqinə sahib olan "B.J.R. Foods Limited" şirkətinin 75%-lik payını Anar Məmmədov 23 iyul 2021-ci il tarixində satın alıb.

Anar Məmmədov "B.J.R. Foods Limited" şirkətinin səhmlərinə sahib olduqdan sonra şirkət zərərlə işləməyə başlayıb. Belə ki, "B.J.R. Foods Limited" şirkəti 2021-ci ili 3 milyon 244 min 762 funt-sterlinq mənfəətlə başa vurduğu halda, 2022-ci ildə xalis zərəri 1 milyon 182 min 13 funt-sterlinq, 2023-cü ildə isə 629 min 446 funt-sterlinq olub ("Yeni avaz").

2024-cü ildə isə bu böyük və məşhur restoranlar şəbəkəsi uzun fasilədən sonra nəhayət ki, gəlirlə işləyib, lakin xalis mənfəət hətta 400 min manata belə çatmayıb ki, bu da KFC-nin səhmlərinin dörddə üçünü almaqdan ötrü fantastik pullar xərcləyən sabiq nazir oğlu üçün xəyalqırıqlığı sayıla bilər. Onun növbəti dəfə yanlış investisiya qoyuluşuna görə təəssüf hissi keçirməsi belə tamamilə mümkündür.

Onu da bildirək ki, səhmlərinin 75%-i Anar Məmmədova məxsus olan adı çəkilən şirkətə hazırda Böyük Britaniya vətəndaşları 1970-ci il təvəllüdlü Zafar Abbasi və 1967-ci il təvəllüdlü İqbal Suleyman rəhbərlik edirlər. Bu şəxslər daha əvvəl - 2004-2010-cu illərdə Londonda fəaliyyət göstərən "Zqan UK Ltd" şirkətinə rəhbərlik ediblər.

Məlum olduğu kimi, Azərbaycanda fəaliyyət göstərən ZQAN holdinq Anar Məmmədova məxsus olub. ZQAN adı da sabiq nazirin - Ziya Məmmədovun özünün və ailə üzvlərinin adının baş hərfləri əsasında yaradılıb.

Xatırladaq ki, Bakıda fəaliyyət göstərən KFC restoranları da vaxtilə Anar Məmmədova məxsus ZQAN holdinqə bağlı olub. ZQAN holdinq 2013-cü ildə adını dəyişərək "Garant holding"ə çevrilib. 2017-ci ildə Ziya müəllim nazir vəzifəsindən azad edildikdən sonra KFC restoranları vaxtilə fövqəladə hallar naziri Kəmaləddin Heydərovun oğlanlarının rəhbərlik etdiyi "Gilan" holdinqin tərkibinə daxil edilib.

Sonda maraqlı bir məqamı da qeyd edək: Londonda məşhur restoranlar şəbəkəsi olan KFC françayzinqinə sahib olan "B.J.R. Foods Limited" şirkətinin 75%-lik payını 23 iyul 2021-ci il tarixində satın alan Anar Məmmədov eyni tarixdə daha 3 şirkətin 75%-lik payını satın alıb. Bu şirkətlər "Colonel Foods Limited", "1st RATE Investment (UK) Limited" və "Amber Restaurants Limited" şirkətləridir.

"Colonel Foods Limited" və "Amber Restaurants Limited" şirkətlərinin zərərlə işləyib-işləmədiyi məlum deyil. Buna səbəb onların 2024-cü illə bağlı hesabatları müvafiq qurumlara təqdim etməmələridir. Ən azından belə bir hesabat indiyədək ictimailəşməyib.

Onu da deyək ki, ötən il beynəlxalq media Amerika qızartma toyuq zənciri KFC-nin İngiltərədə françayzinqinə sabiq nazir oğlunun milyonlarla dollar xərclədiyini ortaya çıxarmışdı. Məlumata görə, KFC şəbəkəsinə yatırımları Anar Məmmədovun Britaniyadakı biznes və daşınmaz əmlak portfoliosunun - əmlak çantasının bir hissəsidir. Britaniya torpaq reyestrindən əldə olunan qeydlərdən bu portfolioya Londonun ən bahalı küçələrində toplam dəyəri 30 milyon dolları aşan daşınmaz əmlakın da daxil olduğu anlaşılırdı. Anar həmin daşınmaz əmlakın çox hissəsini atasının nazir olduğu vaxtda əldə edib.



2024-cü ilin yayında oğul Məmmədovun İngiltərənin şimal-qərbində azı 20 restoranının olduğu da üzə çıxmışdı. Aydınlaşmışdı ki, o, anonim ofşor şirkətindən yararlanaraq, azı 10 il öncədən həmin sərmayəsini yatırmağa başlayıb.

A.Məmmədov İngiltərənin Liverpul, Uiqan, Bolton və Preston kimi şəhərlərindəki daşınmaz əmlak portfoliosu, yaxud KFC restoranları ilə bağlı beynəlxalq medianın açıqlama xahişlərinə cavab verməmişdi. KFC və onun ABŞ-dakı "Yum! Brands" ana şirkətinə sorğular cavabsız qalmışdı.

Sabiq nazir Z.Məmmədova o, vəzifədə olarkən oğlunun ölkə xaricində milyonlarla dollarlıq biznes qurması barədə suala "Qoy kim nə istəyir, danışsın. Allah hər şeyi görür" demişdi. Halbuki hələ bir neçə il öncə oğlunun Britaniyada restoranlarının olması barədə ilk dəfə iddialar ortaya çıxarkən ata Məmmədovun cavabı belə olmuşdu: "O xəbəri kim yazıbsa, gedib o restoranı tapsın. Onda mən o restoranı həmin adama verəcəyəm. 30 il olar, cəfəngiyyat yazırlar... Anarın Britaniyada restoranı yoxdur".

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

**Toğrul Əliyev**

# Vilayət Eyvazov 6 ayın yekunları ilə bağlı kollegiya iclası keçirdi



***İyulun 10-da Daxili İşlər Nazirliyində 2025-ci ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov cari ilin birinci yarısında cinayətkarlıqla mübarizədə müsbət nəticələrin əldə edildiyini, kütləvi tədbirlərdə asayişin və təhlükəsizliyin peşəkarlıqla təmin olunduğunu, eyni zamanda qarşıda mühüm vəzifələrin durduğunu və onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

İclasda hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Qeyd olunub ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 17049 cinayət qeydə alınıb, onların 94,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2024-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 18,9, odlu silahın tətbiqi ilə törədilənlər 2 dəfə, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 19,8, qrup halında baş verənlər 18,8, məişət zəminində törədilənlər 5,5, qəsdən adam öldümələr 39,1, mülkiyyət əleyhinə olanlar 4,2, o cümlədən oğurluqlar 6,2, dələduzluqlar 7,3 faiz azalıb.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 92,8 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 232, görülmüş operativ cavab tədbirləri ilə 2196 cinayət açılıb, 4344 hüquqazidd əməlin qarşısı alınıb, axtarışda olan təqsirləndirilən şəxslərin 79,7 faizi tutulub, 3378 ədəd müxtəlif növ atıcı silah yığılıb və tapılıb.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi tərəfindən əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması ilə bağlı yaradılmış birgə işçi qrupun istintaq və əməliyyat-axtarış tədbirlərinin müsbət nəticələr verdiyini vurğulayan nazir vətəndaşların qanuni mənafelərinin qorunmasına və qanunçuluğun möhkəmlənməsinə xidmət etdiyini, o cümlədən cinayətlərin, onların ağır və xüsusilə ağır növlərinin azaldığını, açılması və istintaqı sahəsində əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu diqqətə çatdırıb.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 305, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 82 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Qeyri-leqal dövriyyədən 2 ton 958 kiloqram narkotik vasitə çıxarılıb və 151 tondan artıq narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinin xüsusi nəzarətdə olduğu, bu baxımdan mediada qabaqcadan məlumat verilməklə 4032 şəxsin qəbul edildiyi və qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığı vurğulanıb.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.



# Azərbaycandakı korrupsiyaya qarşı mübarizə tədbirləri yüksək qiymətləndirildi

***7-10 iyul tarixlərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Fransa Respublikasının Paris şəhərindəki qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) 24-cü Plenar iclası və Şəbəkənin İdarə Heyətinin 30-cu görüşü keçirilib.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, qeyd edilən tədbirlərdə ölkəmiz Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, Ali Məhkəmənin sədr müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərov, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Səbuhi Alıyev, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın katibi Təbriz Musayev və digər əməkdaşlardan ibarət nümayəndə heyəti tərəfindən təmsil olunublar.

Plenar iclasda Şəbəkənin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsi çərçivəsində ölkəmiz üzrə daha öncə təqdim edilmiş tövsiyələrin icrası ilə əlaqədar tərəqqi hesabatı müzakirə edilərək qəbul edilib.

Dəyərləndirmə nəticəsində ixtisaslaşmış anti-korrupsiya qurumunun fəaliyyəti, dövlət satınalmalarında şəffaflıq, həmçinin məhkəmə sisteminin müstəqilliyinin təmini və digər istiqamətlərdə görülmüş tədbirlərin müsbət nəticələri vurğulanıb. Xüsusilə qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ekspertlər tərəfindən olduqca yüksək qiymətləndirilmiş və müvafiq sahədə əldə etdiyi nəticələrə görə Azərbaycan region ölkələri arasında ilk yerlərdən birini tutur.

Bununla yanaşı, iclasda Ukrayna, Moldova və digər ölkələr üzrə dəyərləndirmə hesabatları qəbul edilib, Şəbəkənin 2023-2026-cı illər üzrə İş Proqramının icrası, habelə həyata keçirilmiş müxtəlif regional layihələr müzakirə edilib.

Nümayəndə heyətimiz Şəbəkənin İdarə Heyətinin iclasında çıxış edərək son dövrdə ölkəmizdə korrupsiya və oxşar neqativ halların qarşısının alınması və ona qarşı mübarizə ilə bağlı həyata keçirilmiş tədbirlər barəsində geniş məlumat verib.

# Keçmiş hərbçi vəfat etdi



***Keçmiş hərbçi dünyasını dəyişib.***

"Unikal"ın məlumatına görə, Zeynalov Cəfər Minacəddin oğlu uzun sürən xəstəlikdən sonra vəfat edib. Mərhum Quba rayonunda dəfn olunub.

Qeyd edək ki, tankçı C.Zeynalov xəstəliyi ilə əlaqədar 2018-ci ildən istefada olub.

***Anar Kəlbiyev***

# MİQ üzrə bir sıra fənlərlə bağlı apellyasiya müraciətlərinə start verildi

***Biologiya, fransız dili, fiziki tərbiyə, rus dili və fizika fənləri üzrə keçirilən Müəllimlərin İşə Qəbulu imtahanı ilə bağlı apellyasiya müraciətlərinə start verilib.***

Bu barədə "Unikal"a İnsan Resursları Mərkəzindən məlumat verilib.

Bu mərhələdə imtahanda iştirak etmiş namizədlər şəxsi səhifələrində aktivləşdirilən müvafiq xanaya daxil olaraq 48 saat (2 gün) ərzində apellyasiya müraciəti edə bilərlər.

Namizədlər müvafiq xanaya müraciətlərinin məzmununu ətraflı şəkildə qeyd etməlidirlər.

# 12 milyon manatlıq məmur korrupsiyasının gizlinləri

## Həftənin replikası: ikinci-üçüncü dərəcəli vəzifəlilər belə qısa vaxtda bu qədər pul mənimsəyə bilirsə...

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, "Dənizkənarı Bulvar İdarəsi" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sabiq sədri İlqar Mustafayev, onun köməkçisi Rəşad Bədəlov, "GİRASOL" MMC-nin direktoru Fuad Babayev və digərlərinin cinayət işi üzrə məhkəməsi başlayır. Cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.***

İşə hakim Leyla Əsgərova-Məmmədova sədrlik edəcək.



Məhkəmənin hazırlıq iclası iyulun 14-nə təyin edilib.

Qeyd edək ki, "Dənizkənarı Bulvar İdarəsi" Publik Hüquqi Şəxsin fəaliyyətinin yoxlanılması ilə bağlı Azərbaycan Respublikasının Hesablama Palatasından daxil olmuş materiallar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Məlumata görə, ibtidai istintaqla İlqar Mustafayevin "Dənizkənarı Bulvar İdarəsi" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri vəzifəsində işlədiyi dövrdə köməkçisi Rəşad Bədəlov, "GİRASOL" MMC-nin direktoru Fuad Babayev və qeyriləri ilə cinayət əlaqəsinə girib rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə qurumun ərazisində yerləşən qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, ərazidə kommersiya obyektlərinin fəaliyyətinin təşkil edilməsi, gəmi gəzintiləri və digər bu kimi fəaliyyət sahələrindən əldə edilmiş ümumilikdə 12 milyon manatdan artıq pul vəsaitini vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə mənimsəmələrinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa İlqar Mustafayevin 1 milyon 800 min manatdan artıq məbləğdə vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmasına və cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin 10 milyon manatdan artıq hissəsini özü və qohumlarının adına əqdlər bağlamaq yolu ilə müvafiq əmlaklar alaraq leqallaşdırmasına əsaslı şübhələr müəyyən olunub.

(Məlumat üçün deyək ki, toplanmış sübutlar əsasında İlqar Mustafayevə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda törədilməklə mənimsəmə), 193-1.3.2 (xeyli miqdarda törədilməklə cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma), 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı), Fuad Babayev və Rəşad Bədəlova isə həmin Məcəllənin 179.4, 308.2 və 313-cü maddələri ilə ittiham elan edilib, İlqar Mustafayev barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarı ilə həbs, digərləri barəsində isə istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

İş üzrə müəyyən edilmiş maddi ziyanın ödənilməsini təmin etmək məqsədilə ümumilikdə 11 milyon manatdan artıq dəyərdə əmlak üzərinə həbs qoyulub.

Eyni zamanda, cinayət işindən həmin əməllərin törədilməsində iştirak etmiş digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılmaqla ibtidai istintaq davam etdirilir).

İndi isə vacib bir məqamın üzərində dayanaq. Dənizkənarı Bulvar İdarəsi nazirliklərlə, komitələrlə, icra hakimiyyətlərilə müqayisədə şübhəsiz ki, elə də böyük qurum deyil. Onun rəhbərini isə vəzifə səlahiyyətləri baxımından ikinci-üçüncü dərəcəli məmur hesab etmək mümkündür (hərçənd bir neçə il öncə Dövlət İmtahan Mərkəzi açıqlamışdı ki, dövlət orqanlarının publik hüquqi şəxsə çevrilməsi ilə işçilər dövlət qulluqçusu statusunu itirirlər). Belədə daha yüksək postlarda çalışan bəzi vəzifəlilərin yol verdiyi korrupsiya əməllərinin miqyasını təsəvvür belə edə bilmirsən!

Yeri gəlmişkən, ibtidai istintaqla İlqar Mustafayevin 2021-2023-cü illər ərzində rəhbərlik etdiyi idarənin fəaliyyət istiqamətləri üzrə ayrılmış xüsusilə külli miqdarda pul vəsaitini mənimsəmə və israf etmə yolu ilə talamasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edildiyi açıqlanmışdı. Belə çıxır ki, hardasa 12 milyon manatlıq korrupsiya əməllərinə cəmi 2 ildə imza atılıb! Bu bir sıra vəzifə sahiblərinin qısa müddətdə, necə deyərlər, bir göz qırpımında fantastik məbləğdə pulları necə rahatlıqla "həzmrabedən keçirə bilmək" qabiliyyətinə sahib olduqlarının göstəricisidir.

Rahatlıqla deyirik, çünki əvvəla, belə az müddətdə böyük pulları hətta bir çox məşhur biznesmenlər, iş adamları da xəyal edə bilməzlər.

İkincisi, son illərdə ölkədə talançılığa, israfa, yeyintiyə yol verən kreslo shaiblərinə qarşı çox saylı əməliyyatlar keçirilib, onlar yalnız tutduqları vəzifələri deyil, azadlıqlarını da itiriblər. Lakin görünən odur, asan yolla, daha dəqiq desək, qanunsuz yolla varlanmaq ehtirası bəzilərinin gözünü elə tutub ki, "gözü çıxmış qardaşlarının" - korrupsiyaya görə qandallanan məmurların aqibətindən nə dərs çıxarmaq, nə ibrət almaq ağıllarına gəlir. Yəni bu qədər rahatdırlar!

Və belə aydın olur ki, bəzi məmurlarda bu rahatlıq davam etdiyi müddətdə həbslər də qaçılmaz olacaq...

***Sənan Mirzə***

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 12



## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İqtisadi zonalar üzrə peşə təhsili regionların sosial-iqtisadi inkişafında yeni mərhələ açıb




***Regionların sosial-iqtisadi inkişafının bir yolu da həmin zonalarda iqtisadiyyatın inkişaf etdiyi sahələr üzrə ixtisaslı kadr hazırlığından keçir. Bu baxımdan artıq bir neçə ildir ki, regionlarda olan peşə məktəblərinin təmiri, bərpası istiqamətində dövlət tərəfindən tədbirlər həyata keçirilir. Regionlarda iqtisadiyyatın inkişaf etdiyi sahələr üzrə ixtisaslı kadrlar hazırlanır. Hətta İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində Peşə Təhsil Mərkəzi də yaradılıb. "Unikal" qəzeti peşə məktəblərinin regionların sosial-iqtisadi inkişafında rolunu araşdırıb.***

İqtisadi Zonaların İnkişafı Agentliyindən "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, Agentliyin nəzdində Peşə Təhsil Mərkəzi fəaliyyət göstərir. Mərkəzin yaradılmasının məqsədi regionlar üzrə sosial-iqtisadi inkişafı təmin etmək, lazım olan sahələr üzrə kadr hazırlamaqdır.

"İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində Peşə Təhsil Mərkəzi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 aprel tarixli 68 nömrəli Qərarı ilə "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin nəzdində yaradılıb. 2020-ci ildə qəbul edilmiş yeni qərara əsasən, Mərkəzin adındakı "Tədris" sözü "Təhsil" sözü ilə əvəz olunub və həmin il Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş Nizamnamə əsasında dövlət qeydiyyatına alınaraq hüquqi şəxs statusu əldə edib. 2020-ci il 14 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə rəsmi açılışı həyata keçirilib, Mərkəz, 2021-ci ildən etibarən Prezidentin 21 dekabr tarixli Fərmanına uyğun olaraq İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyində fəaliyyət göstərir.

Tədris üzrə 2024-2025-ci tədris ili üzrə Mərkəzə qəbul olunan tələbələrin sayı 322 nəfər təşkil edib, əvvəlki illərdən təhsilini davam etdirən 98 nəfərlə birlikdə ümumi tələbə sayı 420-yə çatıb.

Hal-hazırda Mərkəzdə Sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və texniki istismarı, Avtomatika sistemlərinin istismarı, Alternativ enerji qurğu və avadanlıqlarının istismarı, Elektronika və kommunikasiya texnologiyaları üzrə texnik, Kompüter sistemlərində proqramlaşdırma, İnformasiya və kommunikasiya texnologiyaları üzrə texnik, Avtomatika üzrə usta, İsitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis,Elektrik qaz qaynaqçısı, Qrafik dizayner,

Veb dizayner və proqram təminatı, Proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru ixtisaslar üzrə təhsil həyata keçirilir".

Qurumdan bildirilib ki, 2023-2024-cü tədris ili üzrə məzunların 65,4%-i məşğulluqla təmin edilib:" Tədris ili üzrə 2020-2021-ci ildə 73 nəfər, 2021-2022-ci ildə 73, 2022-2023-cü ildə 131, 2023-2024-cü ildə 136, 2024-2025-ci ildə 97 nəfər peşə məktəbindən məzun olub.

Cəmi 511 nəfər İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində Peşə Təhsil Mərkəzindən məzun olub ki, onların da mütləq əksəriyyəti işlə təmin edilib.

Agentlik Peşə Təhsil Mərkəzində tədrisin keyfiyyətini artırmaq, müasir elmi və texnoloji biliklərin tədrisə inteqrasiyasını təmin etmək məqsədilə bir sıra yerli və beynəlxalq qurumlarla əməkdaşlıq edir. Bu əməkdaşlıqlar nəticəsində laboratoriyaların maddi-texniki bazası gücləndirilmiş, innovativ layihələrin icrası və yeni tədqiqat istiqamətləri üzrə birgə fəaliyyətə start verilib.

Beynəlxalq əməkdaşlıq çərçivəsində İsveçrənin SMBS Universiteti ilə bağlanmış razılaşmaya əsasən ikili diplom proqramı tətbiq olunmağa başlanılıb. Eyni zamanda, "İnformasiya və kommunikasiya texnologiyaları üzrə texnik" ixtisasında Almaniyanın dual təhsil modeli, "Avtomatika üzrə usta" və "Elektrik montyoru" ixtisaslarında isə Koreya təhsil sistemi tətbiq olunur. Bu tədris modelləri tələbələrə həm nəzəri biliklər, həm də praktik bacarıqlar qazandırmaqla onların rəqabətqabiliyyətli kadr kimi formalaşmasına imkan verir.

Mərkəzlə "Holcim Azərbaycan" ASC arasında imzalanmış əməkdaşlıq çərçivəsində 2024 və 2025-ci illərdə "Usta Mənəm!" adlı peşə müsabiqəsi keçirilməkdədir. Bu müsabiqə gənclərdə peşəyə marağın artırılmasını və Peşə təhsilinin təbliğ olunması, mövcud bilik və bacarıqların inkişafını hədəfləyir.

Əmək bazarının aktual tələblərinə uyğun olaraq, 2024-cü ildə Azərbaycanda ilk dəfə Peşə Təhsil Mərkəzində "Alternativ enerji qurğu və avadanlıqlarının istismarı" ixtisası üzrə 19 tələbənin qəbulu həyata keçirilib. Koreya təhsil sisteminə əsaslanan ixtisaslar üzrə - "Avtomatika üzrə usta" və "Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru" - tələbələr elektrik dövrə nəzəriyyəsi, pnevmatika və qidravlika, PLC mühəndisliyi, sensor şəbəkələri, rəqəmsal elektronika və praktiki mühəndislik təcrübələri üzrə biliklərə yiyələnirlər.

Alman dual təhsil sistemi tətbiq olunan "İKT üzrə texnik" ixtisası üzrə isə tələbələr media texnologiyaları, verilənlər bazası strukturları, veb proqramlaşdırma, robototexnika və proqram tətbiqlərinin yaradılması sahələrində dərindən hazırlanırlar. Bu yanaşma tələbələrə Mərkəzin və Almaniyanın diplomlarını əldə etmək imkanı verir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində Peşə Təhsil Mərkəzi peşə təhsilində müasir texnologiyaların, beynəlxalq tədris modellərinin və əmək bazarı yönümlü yanaşmaların inteqrasiyası ilə ölkənin sənaye inkişafında mühüm rol oynamağa davam edir. Mərkəz həm ölkədaxili, həm də beynəlxalq əməkdaşlıqlar vasitəsilə gələcəyin ixtisaslı kadrlarını hazırlamaqda strateji mövqedədir".

Qeyd edək ki, peşə təhsili ölkənin sosial-iqtisadi inkişafına təkan verən, iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını təmin edən aparıcı təhsil pilləsidir. Son illərdə ölkə rəhbərliyi tərəfindən aparılan məqsədyönlü islahatlar peşə təhsilinin rolunun əhəmiyyətli dərəcədə artırılmasına təkan verib.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq bu sahənin inkişafı üzrə kompleks tədbirlər həyata keçirilib.Bu gün əmək bazarında bir çox ixtisaslara ehtiyac olmadığından peşə təhsili sistemində bu peşələr yenisi ilə əvəz olunur ki, bu da əmək bazarının tələblərinə uyğun daha çevik, daha bacarıqlı kadrların hazırlanmasını gündəmə gətirir. Yeni ixtisaslara ehtiyac yarandığından peşə təhsili sisteminin imicinin formalaşdırılması nəzərə alınaraq yeni ixtisasların fəaliyyətinə diqqət artırılıb.

Bu məqsədlə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında 8 oktyabr 2024-cü il tarixli Qərarı müxtəlif peşə istiqamətləri üzrə Təsnifata yeni ixtisasların əlavə edilməsi ilə bağlıdır. Bu yeni ixtisaslar həm ölkənin iqtisadi inkişafını dəstəkləmək, həm də gənclərin əmək bazarına daha keyfiyyətli şəkildə daxil olmalarını təmin etmək məqsədi daşıyır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Daha bir avtomobil yolu yenidən qurulur

***Azərbaycan Respublikasının Prezidentinin tapşırığına uyğun olaraq, vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Lerik rayonunun Hamarmeşə-Bibiyani avtomobil yolunun yenidən qurulmasına başlanılıb. Layihə mindən artıq sakinin yaşadığı iki yaşayış məntəqəsini əhatə edir.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, uzunluğu 5,2 kilometr olan və çınqıl örtüyə malik mövcud yol xüsusilə payız-qış mövsümündə nəqliyyat vasitələrinin və piyadaların hərəkətində ciddi çətinliklər yaradırdı. Bu səbəbdən yolun əsaslı şəkildə yenidən qurulması zəruri hesab olunub. Hazırda yol 4-cü və 5-ci texniki dərəcələrə uyğun olaraq təkmilləşdirilir, eni isə 10 metrədək genişləndirilir.

Layihə çərçivəsində torpaq işləri, qazma, əks-doliğu və yol yatağının tikintisi üzrə texnoloji ardıcıllığa əsaslanan işlər davam etdirilir. Eyni zamanda, suların ötürülməsini təmin etmək üçün mövcud dəmir-beton borular bərpa olunur, zəruri ərazilərdə isə müxtəlif diametrli yeni suötürücü borular quraşdırılır.

Bundan əlavə, layihənin birinci kilometrində yeni körpünün və ehtiyac duyulan sahələrdə istinad divarlarının tikintisi də nəzərdə tutulur.

Yenidənqurma işlərinin son mərhələsində yolcizgi və yolgöstərici xətlərinin çəkilməsi planlaşdırılır.

Bütün işlər "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun şəkildə, təsdiqlənmiş iş qrafikinə əsasən və yüksək keyfiyyətlə həyata keçirilir.

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 13





# Ötən ay Azərbaycanda ucuzlaşan və bahalaşan məhsullar - SİYAHI

***Cari ilin iyun ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma uzun düyünün, kolbasa məmulatlarının, balıq və balıq məhsullarının, günəbaxan və qarğıdalı yağlarının, limonun, göyərtinin, təbii balın qiymətlərində müşahidə edilib.***

"Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, ötən ay əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından ucuzlaşma isə yumurtanın, bananın, armudun, alçanın, əriyin, çiyələyin, ağ kələmin, xiyarın, pomidorun, şirin bibərin, badımcanın, lobyanın, süfrə çuğundurunun, yerkökünün, sarımsağın, soğanın, kartofun qiymətlərində müşahidə olunub.

Qeyd edilib ki, 2025-ci ilin iyun ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, yanvar-iyun aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 102,7 faiz təşkil etmişdir. İyun ayında əvvəlki ayla müqayisədə qeyri-qida məhsullarından bahalaşma divar kağızlarının, boyaların, şəxsi gigiyena məmulatlarının, ucuzlaşma isə kəsilmiş taxtanın, laminat parketin, yumşaq mebelin və ortopedik döşəklərin qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

2025-ci ilin iyun ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,2 faiz, yanvar-iyun aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 107,5 faiz təşkil edib. İyun ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən tibbi xidmətlərin, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin və ölkədaxili istirahət turlarının qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# Azərbaycanda orta illik inflyasiya 5.9 faiz təşkil edib

***2025-ci ilin iyun ayında istehlak qiymətləri indeksi 2024-cü ilin iyun ayına nisbətən 106 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 107,0 faiz, qeyri-qida məhsulları üzrə 102,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 107,2 faiz təşkil edib.***

Bu barədə "Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. 2025-ci ilin iyun ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,6 faiz, yanvar-iyun aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 105,9 faiz təşkil edib.

# İşdən çıxarılan məktəb direktorlarının 20 faizi işinə bərpa olunub

***Bu il işdən çıxarılan məktəb direktorlarının 20 faizi məhkəmə qərarı ilə işinə bərpa olunub.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində "Sertifikatlaşdırma 2025: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, məktəblərdə qeydə alınan neqativ hallar araşdırılır və qanunvericiliyə uyğun tədbirlər görülür.

# I və IV ixtisas qruplarının imtahanıdır - 34 mindən çox abituriyent özünü sınayacaq

***Dövlət Imtahan Mərkəzi tərəfindən iyulun 13-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı Dövlət İmtahan Mərkəzi məlumat yayıb.



Bildirilib ki, həmin gün III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni üzrə də imtahan keçiriləcək.

İmtahanlar Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq.

İştirakçılar iyulun 3-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytından "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

**Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:**

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 144 imtahan binası, 2537 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 144 ümumi imtahan rəhbəri, 396 imtahan rəhbəri, 3177 nəzarətçi, 460 buraxılış rejimi əməkdaşı, 144 bina nümayəndəsi cəlb olunub.

İmtahanda I ixtisas qrupu üzrə 24059, IV ixtisas qrupu üzrə 5634, III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə imtahanda isə 4536 nəfər olmaqla, ümumilikdə 34229 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 58 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə iyulun 12-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

İmtahanların gedişini işıqlandırmaq üçün 30 KİV nümayəndəsi DİM-də akkreditasiyadan keçib.

# ADY və Çin Dəmir Yolları BTQ-nin potensialının artırılmasına dair razılığa gəldi

***Azərbaycan və Çin beynəlxalq nəqliyyat dəhlizlərinin və yükdaşıma əməliyyatlarının inkişafı üzrə fəal əməkdaşlıq edəcəklər.***

Bu barədə "Unikal"a "Azərbaycan Dəmir Yolları" QSC-dən (ADY) bildirilib. Məlumata əsasən, "Azərbaycan Dəmir Yolları" QSC və "Çin Dəmir Yolları" Dövlət Korporasiyası arasında imzalanmış Anlaşma Memorandumu Bakı-Pekin münasibətlərinə yeni dinamika qazandırmaqla yanaşı, Avrasiya boyunca fasiləsiz bağlantı üçün mühüm bir addım kimi qiymətləndirilir.

Sənəddə əsas diqqət həmçinin Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin gücləndirilməsinə yönəlib. İki qurum Türkiyəyə, ardınca Avropaya çıxış imkanı verən Bakı-Tbilisi-Qars marşrutu üzrə nəqliyyat əla-



qəsinin inkişaf etdirilməsi barədə razılığa gəlib. Bu xətt vasitəsilə Çin istehsal mərkəzlərinin Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropa bazarlarına çıxışı daha da sürətlənəcək.

Bundan başqa, tərəflər dəmir yolu və liman imkanlarının birgə inkişafı, Xəzər dənizi üzərindən konteyner daşımalarının genişləndirilməsi, gündəlik blok-qatarların sayının artırılması və 10 qatarın keçidinə nail olunması istiqamətində əməkdaşlığı dərinləşdirməyə razılaşıblar.

Bakı-Tbilisi-Qars bu hədəflər fonunda Şərqlə Qərbi birləşdirən, yüksək ötürmə qabiliyyətli strateji nəqliyyat arteriyasına çevrilməkdədir.

Qeyd edək ki, 2023-2024-cü illərdə ADY tərəfindən Orta Dəhlizin vacib seqmenti olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsində modernləşdirmə işləri aparılıb. Bu, ölkəmizin tranzit potensialının artırılması, bütövlükdə Orta Dəhlizin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində mühüm addımdır.

# Mirasla bağlı mülki mübahisələrə son qoyulur



***”Azərbaycan Prezidenti Torpaq, Mülki Prosessual, Mülki Məcəllələrində, “Notariat haqqında” və “İcra haqqında” qanunlarında dəyişiklik edilməsi barədə qanunu imzalayıb. Yeni dəyişikliklər ilə son illər daha çox müşahidə edilən miras ilə bağlı mülki mübahisələrin və eləcə də məhkəmə işlərinin kəskin azalacağı gözlənilir”.***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, son illər dünyasını dəyişmiş şəxsin övladları arasında bir sıra hallarda mirasa, yəni, əmlaka və sərvətə sahib olmaq ilə bağlı mübahisələrin sayında artımlar müşahidə olunurdu:

”Bəzən bu mübahisələr övladlar arasında nəsil çəkişmələrinə belə səbəb olurdu. Sözügedən bütün qanunverici aktlarda edilən dəyişikliklərə əsasən, mirasdan imtina vərəslərinin mirası qəbul etmədiyi halda deyil, bütün vərəsələrin mirasdan imtina etdiyi halda rəsmiləşəcək. Yəni, vərəsələrdən hər hansı birinin miras ilə bağlı iddia irəli sürməməsi heç də onun mirasdan imtinası anlamına gəlməyəcək. Dəyişikliklər birmənalı şəkildə mirasın qəbulu mexanizminin təkmilləşdirilməsinə xidmət edəcək. Belə ki, əvvəllər mirasın qəbulu ilə qanunvericilikdə olan bir sıra ziddiyyətlər son illər varislər arasında bir sıra mülki mübahisələrin yaranmasına səbəb olub ki, yeni dəyişikliklər bu problemləri aradan qaldıracaq. Belə ki, əvvəllər miras ilə bağlı vərəsənin susması, yəni, mirası qəbul və ya imtina etməməsi, onun mirasdan imtina etdiyinə ehtimallar yaradırdı və bu da daha sonradan mübahisələrə səbəb olurdu. Azərbaycan Prezidentinin təsdiq etdiyi son dəyişikliklər mülkiyyət hüququnun konstitutsion təminatının möhkəmləndirilməsi və mirasın qəbulu institutunun tələblərinin daha da təkmilləşdirilməsi və dəqiqləşdirilməsinə xidmət edir.

Belə ki, əvvəlki qanunvericiliyə əsasən, vərəsələrin heç biri mirası qəbul etmədiyi halda əmlak xəzinəyə keçirilirdi. Təsdiq olunan dəyişikliklərə əsasən, bütün vərəsələr mirasdan imtina etdiyi halda bu baş verir. Daha sadə dildə izah etsək, dünyasını dəyişən şəxsin mirasına fərqli səbəblərdən vərəsələrdən heç biri iddia etmədikdə, bu mirasdan imtina kimi izah olunurdu. Yeni qaydalara isə yalnız vərəsələrin mirasdan imtina etdiyi halda bu reallaşır. Eyni zamanda, mirasın qəbulundan imtina etmədikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. Vərəsə mirasdan imtina üçün müəyyənləşdirilmiş zaman bitənədək notarius tərəfindən mirasın siyahıya alınması tələb edə bilər. Müraciət daxil olduğu gündən 2 ay müddətində miras siyahıya alınır”.

Deputat qeyd edib ki, miras açıldıqdan sonra vərəsənin dünyasını dəyişməsi və onun vərəsəsinin ilkin miras qoyandan pay almaq hüququnun qanunvericilik bazası da təkmilləşir və mirasın qəbulu müddətləri ilə məhdudlaşdırılmır:

”Belə ki, mirasın siyahıya alınması üçün nəzərdə tutulan müddətin mirasdan imtina müddəti ilə məhdudlaşdırılır və daha əlverişli qaydalar müəyyənləşdirilir. Dəyişikliklərə əsasən, ölmüş vərəsənin varisinin mirasdan imtina üçün müəyyənləşdirilmiş müddət 3 aydan az olarsa, həmin müddət 3 ayadək uzadılır. Vacib dəyişikliklərdən biri də vərəsələrin kreditorlar qarşısında öhdəlikləri ilə bağlıdır. Yəni, dünyasını dəyişən şəxsin kredit borcları ilə bağlı öhdəlikləri də aydın şəkildə bölüşdürülür. Belə ki, yeni dəyişikliklərə əsasən, mirasın siyahısı notarius tərəfindən təsdiq edildikdə, vərəsələr miras qoyanın kreditorlar qarşısında mirasdan alınmış aktiv həddində məsuliyyət daşıyırlar.

Miras şəriklərinə vərəsəlik şəhadətnaməsinin verilməsi mexanizmləri də təkmilləşdirilib. Belə ki, notarius vərəsəlik şəhadətnaməsinin əldə edilməsi üçün vərəsəyə şəhadətnamə verərkən vərəsə olan, lakin şəhadətnamə almaq üçün müraciət etməmiş digər vərəsələrinin də payı ilə bağlı məlumatları həmin sənəddə qeyd edir. Bu vərəsədən imtina etməyən, amma şəhadətnamə almaq üçün müraciət etməyən vərəsələrin hüquqlarının qorunması baxımından olduqca vacib dəyişiklikdir. Bütövlükdə, yeni dəyişikliklərin mirasa sahiblikdə vərəsələrin hüquqlarının yaxından qoruyacağına və mülki mübahisələrin sayının azaldacağına xidmət edəcəyi gözlənilir”.

# Cəlilabadda qədim yaşayış məskənində dulusçuluq məhəlləsi aşkarlanıb

***Cəlilabad rayonunun Cəfərxanlı kəndi ərazisində yerləşən Paşatəpə adlı qədim yaşayış məskənində aparılan arxeoloji qazıntılar zamanı yeni dulusçuluq məhəlləsi aşkarlanıb.***

APA-nın cənub bürosunun verdiyi xəbərə görə qazıntılar AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun baş elmi işçisi, Muğan Neolit-Eneolit ekspedisiyasının rəhbəri, tarix elmləri doktoru Vəfa Mahmudovanın rəhbərliyi ilə həyata keçirilir.

Vəfa Mahmudovanın sözlərinə görə, 9 min il əvvələ aid edilən bu qədim yaşayış yeri Azərbaycanın erkən dulusçuluq mədəniyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Tədqiqatlar zamanı burada dulusçuluq fəaliyyətinin izləri - saxsı qurutmaq üçün tumba, divar qalıqları və müxtəlif təyinatlı artefaktlar aşkar olunub. Onların arasında təyinatı hələlik müəyyən edilməyən bir neçə qiymətli əşya da var.

Qeyd edək ki, daha əvvəl də Paşatəpədə neolit dövrünə aid saxsı, sümük və dəvəgözü daşından hazırlanmış məişət və bəzək əşyaları, eləcə də Azərbaycanın arxeoloji tarixində ikinci at əhliləşdirilməsi nümunəsi aşkarlanmışdı.



Xatırladaq ki, Paşatəpə abidəsi alimlər tərəfindən ilk dəfə 1970-ci illərdə qeydə alınıb və indiyədək aparılan qazıntılar bölgənin qədim insan məskəni kimi böyük tarixi önəmə sahib olduğunu təsdiqləyir.

# Ağdaşda 2025-ci il üçün yazlıq bitkilərin əkini başa çatıb

***Rayonda yazlıq kənd təsərrüfatı bitkilərinin əkini artıq başa çatmışdır. Mövsüm ərzində 4835,0 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır.***

Bu dövrdə 798,4 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) 89,1 hektar sahədə qarğıdalı, 285,0 hektar sahədə kartof, 1060,0 hektar sahədə tərəvəz, 201,5 hektar sahədə bostan bitkiləri, 2384,0 hektar sahədə çoxillik otlar, və 17,0 hektar sahədə isə sair yazlıq bitkilər əkilmişdir.

**Yazlıq bitkilərin əkin sahəsinin quruluşu**




***Ağdaş Rayon Statistika İdarəsi***

# Kolleclərdə müəllim hazırlığı dayandırıldı

***Sertifikasiya imtahanlarında kollec məzunu olan müəllimlərinin nəticələri aşağıdır.***

“Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində “Sertifikatlaşdırma 2025: peşəkar müəllim-keyfiyyətli təhsil” mövzusunda keçirilən tədbirdə deyib.

Nazir bildirib ki, bu səbəbdən də bir müddətdir kolleclərdə müəllim hazırlığı dayandırılıb: “Vaxtilə kolleclərdə aparılmış müəllim hazırlığının mənfi nəticələrini biz hiss edirik”.

# Amerikalı səyyah: Şuşada indi hər şey mükəmməl görünür

***Azərbaycanın azad edilmiş əraziləri bərpa etmək tərzi fantastikdir.***

Bunu Şuşa şəhərinə səfəri çərçivəsində ABŞ-ın Kaliforniya ştatından olan səyyah Çarls Vili deyib.

“Mən Qarabağın azad edilməsindən bəri dörd ildir ki, bura gəlib-gedirəm. Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə şahid olmuşam. Azərbaycanlıların bu əraziləri bərpa etmək tərzi həqiqətən də fantastikdir. Üç hava limanı, çoxlu yeni avtomobil və dəmir yolları və s. Dörd il əvvəl Şuşadakı divarlar uçulurdu, amma indi hər şey mükəmməl görünür. Şəhər çox gözəldir, burada beşulduzlu otel də var. Xüsusilə, Prezident İlham Əliyevin Əbu Dabidə Ermənistan lideri ilə görüşü məni çox şad edir. Məncə bu görüş sülh üçün, eyni zamanda, regionda iqtisadi uğurlar üçün daha çox ümid yaradacaq”, - amerikalı səyyah qeyd edib(apa).

# Suriyaya qaz verilişində SOCAR da iştirak edə bilər

***Türkiyənin Suriyanı təbii qazla təmin etmək planlarında SOCAR Ankaranın tərəfdaşı ola bilər.***

“Unikal” xəbər verir ki, bu barədə Türkiyənin energetika naziri Alparslan Bayraktar bildirib.

”SOCAR bu layihədə bizimlə tərəfdaş ola bilər. Ümid edirəm ki, biz Suriyada həyatı normallaşdıra bilərik”, - Bayraktar OPEC toplantısı üçün Vyanaya səfəri zamanı deyib.

Xatırladaq ki, Bayraktar may ayında Dəməşqə səfəri zamanı Türkiyənin Suriyaya 1000 meqavat elektrik enerjisi ilə yanaşı, hər il 2 milyard kubmetr təbii qaz verəcəyini bildirmişdi.

## Tramp Braziliya mallarına 50 faiz rüsum tətbiq edib



***2025-ci il avqustun 1-dən ABŞ Braziliyadan gələn bütün mallara 50% idxal rüsumu tətbiq edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ lideri Donald Tramp qərar verib.

Bundan əvvəl Tramp Yaponiya və Cənubi Koreyadan gələn bütün mallara 25 faizlik gömrük rüsumunun tətbiq ediləcəyini açıqlamış, bu ölkələrin tarif və qeyri-tarif maneələri nəticəsində yaranan ticarət kəsirlərinə son qoymağın vaxtının gəldiyini bildirmişdi.

## Kremldən Bakı ilə İrəvan arasındakı görüşə münasibət



***"Rusiya Bakı ilə İrəvan arasında birbaşa dialoqu alqışlayır".***

"Unikal" xəbər verir ki, bunu Kremlin sözçüsü Dmitri Peskov brifinqdə deyib.

Peskovun sözlərinə görə, Rusiya hakimiyyəti dəfələrlə iki ölkə arasında sülh müqaviləsinin mümkün qədər tez imzalanmasını alqışlayacaqlarını bildirib.

"Bakı ilə İrəvan arasında birbaşa təmaslar və sülh müqaviləsi imzalanması regionda sabitlik və təhlükəsizlik baxımından müstəsna əhəmiyyət daşıyır. Moskva bu prosesi tam dəstəkləyir", - deyə Peskov əlavə edib.

## Lavrov ABŞ dövlət katibi ilə görüşdü

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ABŞ dövlət katibi Mark Rubio Malayziyanın paytaxtı Kuala-Lumpurda danışıqlara başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" agentliyi məlumat dərc edib.

Məlumata görə, Çinin xarici işlər naziri Van Yinin də iştirakı gözlənilir. Lakin dövlət katibinin çinli və rusiyalı həmkarları ilə görüşüb-görüşməyəcəyi hələlik bəlli deyil.

## NASA-nın 2000-dən çox əməkdaşı istefaya hazırlaşır - SƏBƏB



***ABŞ-də Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsinin ( NASA ) təxminən 2145 yüksək vəzifəli əməkdaşı istefa verməк niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" nəşri mənbələrə istinadən məlumat dərc edib. Məlumata görə, bu, kadrların ixtisarı üzrə aparılan siyasətlə bağlıdır. ABŞ Prezidenti Donald Trampın rəhbərliyi altında son aylarda ölkənin kosmik sənayesi və 18 min NASA işçisi ixtisar və mümkün büdcə ixtisarı ilə hədələnib.

Nəşr qeyd edir ki, Ağ Ev NASA-nın maliyyəsini 25% azaltmaq və 5000 yüksək vəzifəli agentlik əməkdaşını ixtisar etmək niyyətindədir.

Səhifəni Gülayə Mecid hazırladı

## Qəzza ilə bağlı bu ölkələr gizli danışıqlar aparır

***ABŞ, İsrail və Qətərin yüksək səviyyəli rəsmiləri Qəzzada çoxdan gözlənilən atəşkəs və girovların dəyişdirilməsi ilə bağlı Ağ Evdə bağlı qapılar arxasında danışıqlar aparıblar.***

"Unikal" xəbər verir ki, bu barədə "Axios" nəşri mənbələrə istinadən məlumat yayıb.

Qeyd olunur ki, ABŞ prezidenti Donald Tramp son 48 saat ərzində İsrailin baş naziri Benyamin Netanyahu ilə iki dəfə görüşüb. Ağ Evin xüsusi nümayəndəsi Stiv Vitkoffun sözlərinə görə, tərəflər dörd əsas mübahisəli məsələdən üçünü həll edə biliblər.

Tramp və Netanyahu arasındakı görüşdən əvvəl Vitkoff yüksək səviyyəli Qətər rəsmisi və Netanyahunun baş müşaviri Ron Dermer ilə ayrı-ayrılıqda danışıqlar aparıb.



Mənbələrin sözlərinə görə, IDF-nin Qəzzada geri çəkilməsi müzakirə olunub. Doha və Vaşinqton İsrailə açıq şəkildə bildiriblər ki, IDF-nin minimal şəkildə çıxarılması ilə bağlı ilkin təklifi HƏMAS-ı qane etməyəcək və bütün prosesi poza bilər.

Dermer, Netanyahunun hakim koalisiya daxilində təzyiqlərlə üzləşdiyinə və təkbaşına belə qərarlar verə bilməyəcəyinə diqqət çəkib. Ancaq görüşdən sonra İsrail daha geniş işğaldan azad zonanı ehtiva edən yeni çəkilmə xəritəsini təqdim edib.

"Axios" bunun bir irəliləyiş olduğunu yazıb. Razılaşmaya 60 günlük atəşkəs müqabilində diri saxlanılan 10 girovun azad edilməsi və 18 ölünün qalıqlarının təhvil verilməsi daxildir.

HƏMAS da öz növbəsində İsrail qoşunlarının Qəzzadan tamamilə çıxarılmasında və daimi atəşkəsə keçidin təmin edilməsində israr edərək, razılaşma üzərində işləməyə davam etdiyini bildirib.

## "Kreml Kiyevdən danışıqlara dair siqnal gözləyir" - Peskov

***Rusiya Federasiyası Kiyevdən Ukrayna münaqişəsinin həlli üzrə birbaşa danışıqların davam etdirilib-etdirilməməsi ilə bağlı mövqeyini ifadə edən siqnallar gözləyir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov brifinq zamanı jurnalistlərin suallarını cavablandırarkən bildirib. Peskovun sözlərinə görə, hazırda sülh prosesinin dayanması ilə bağlı qəti nəticə çıxarmaq düzgün olmazdı.

"Biz hələ də Kiyev rejimi nümayəndələrindən Rusiya və Ukrayna arasında birbaşa danışıqların üçüncü raunduna çıxmaq istəyinə və ya istəksizliyinə dair müəyyən siqnalların gəlib çatmasını gözləyirik. Dəfələrlə vurğulamışıq ki, qarşıya qoyulan məqsədlərə siyasi-diplomatik yollarla nail olunması bizim üçün üstünlük təşkil edir," - deyə Peskov qeyd edib.

Prezidentin sözçüsü əlavə edib ki, hazırda Ukrayna böhranının sülh yolu ilə tənzimlənməsi baş vermir. Bu səbəbdən Rusiya hərbçiləri xüsusi hərbi əməliyyatı davam etdirirlər və sahədə vəziyyət hər gün dəyişir.



## "Quterreş tez-tez Qərbin yalanlarını təkrarlayır" - Rusiya XİN

***Rusiya Xarici İşlər Nazirliyi BMT Baş katibi Antoniu Quterreşin Rusiya istehsalı olan pilotsuz uçuş aparatları ilə bağlı verdiyi bəyanata münasibət bildirib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Rusiya XİN açıqlama yayıb. Qurumun yaydığı açıqlamada qeyd olunur ki, Quterreş tez-tez Qərbin yalanlarını təkrarlayır.

"Quterreş və onun tabeliyində olan şəxslər Kiyev və Qərb paytaxtları tərəfindən fabrikləşdirilən, Rusiyanı nüfuzdan salmağa yönəlmiş yalanları mütəmadi olaraq dəstəkləyir və tirajlayırlar", - deyə bəyanatda vurğulanır.



Rusiya XİN həmçinin BMT-nin Kiyevin beynəlxalq humanitar hüququ pozması hallarını ya susqunluqla qarşılamasını, ya da yalnız hər iki tərəfi təmkinə çağırmaqla kifayətlənməsini tənqid edib. Nazirlik bu yanaşmanın BMT Nizamnaməsinin 100-cü maddəsində nəzərdə tutulan qərəzsizlik prinsipini pozduğunu bildirib.

Qeyd edək ki, Rusiya xarici işlər naziri Sergey Lavrov daha əvvəl verdiyi açıqlamalarda BMT Baş katibini səlahiyyətlərindən mütəmadi sui-istifadə etməkdə günahlandırmışdı.

## Avropada Ukraynanın yenidən qurulması fondu yaradılıb

***Brüsselin İtaliya, Almaniya, Fransa və Avropa Bankı ilə birlikdə yaratdığı Avropada Ukraynanın bərpası üçün fond yaradılır.***

"Unikal" xəbər verir ki, bunu Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen Romada Kiyevə yardım üzrə konfransda deyib.

"Mən İtaliya, Almaniya, Fransa və Avropa İnvestisiya Bankı ilə birlikdə yaratdığımız Ukraynanın bərpası üçün Avropa Fondunun yaradılmasını elan etməyə hazıram", - Leyen ifadə edib.

AK rəhbərinin sözlərinə görə, Ukraynanın qrantlar və kredit zəmanətləri hesabına 10 milyard avroya yaxın özəl investisiya cəlb edəcəyi gözlənilir. Von der Leyen Ukrayna iqtisadiyyatına sərmayə qoymağın zəruriliyini bəyan edib.

25_27 IYUl-QARA.qxd 7/10/2025 8:40 PM Page 16



# Millimizin FIFA reytinqində yeni mövqeyi bəlli oldu

***FIFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.***

"Unikal" ali futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, Azərbaycan yığması reytinqdə üç pillə geriləyib.

Fernandu Santuşun baş məşqçisi olduğu kollektiv 1148 xalla 122-ci yerdə qərarlaşıb.

Reytinqə 1885.36 xalla son dünya çempionu Argentina millisi başçılıq edir. Avropa çempionatının son qalibi İspaniya yığması (1867.09) ikinci, Fransa seçməsi (1862.03) üçüncüdür.



# "Telefonum "Barselona" azarkeşlərinin mesajları ilə doludur" - Enrike

***PSJ baş məşqçisi Luis Enrike Klublararası Dünya Çempionatında "Real Madrid" üzərində qazandıqları 4:0 hesablı qələbədən sonra maraqlı açıqlamalar verib.***

"Qafqazinfo" xəbər verir ki, ispaniyalı məşqçi matçdan sonra keçirdiyi mətbuat konfransında "Barselona" azarkeşlərinin onu mesajlarla təbrik etdiyini deyib:



"Telefonum "Barselona" azarkeşlərinin mesajları ilə doludur. "Real Madrid" böyük klubdur, belə də qalacaq. Biz klub üçün hər şeyimizi veririk. Bəzi oyunçulara istirahət lazım idi. Əsas məqsəd final üçün hazır olmaqdır. Yüksək səviyyəli futbolda dayanmaq yoxdur." "PSJ" bu nəticə ilə finala yüksəlib və bazar günü "Çelsi" ilə qarşılaşacaq.

# "Sumqayıt"dan ayrılan futbolçu tanınmış klubda

***"Sumqayıt"ın keçmiş futbolçusu Bobur Abdixolikovun yeni klubu müəyyənləşib.***

QOL.az xəbər verir ki, 28 yaşlı hücumçu karyerasını vətəni Özbəkistanda davam etdirəcək. Millinin hücumçusu "Paxtakor"a keçib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Tərəflər 1 illik müqavilə imzalayıblar. Qeyd edək ki, Abdixolikov bu ilin fevral ayından mövsümün sonunadək "Sumqayıt"ın formasını geyinib. "Gənclik" şəhəri təmsilçisi onunla müqaviləni yeniləmək istəsə də, razılıq əldə edə bilməyib.



# "Sabah"dakı işimlə qürurlanıram" - Murad Musayev

***"Sabah"ın sabiq baş məşqçisi Murad Musayev Azərbaycanda işlədiyi dövrdən danışıb.***

"Unikal" xəbər verir ki, hazırda Rusiyanın "Krasnodar" klubunu çalışdıran mütəxəssis "Sport Ekspress"ə açıqlamasında "Sabah"dakı işi ilə fəxr etdiyini bildirib:

"Mən Azərbaycana gedəndə biz orada çoxlu yeni şeylər sınamağa başladıq. Təzə ideyalar, emosiyalar, əla nəticələr ortaya çıxdı. Bu işlə qürurlanıram. Çünki "Sabah" indi ölkədə böyük klub sayılır və artıq Vasili Beresutski ilə kuboku qazandıqdan sonra üçüncü dəfə avrokuboklarda oynayacaq",

Rusiyalı mütəxəssis "Sabah"ı yuxarı pillələrə qaldırdığını da xatırlayıb: "Mən komandaya gedəndə "Sabah" sonuncu yerdə idi. Mövsümün sonunda isə beşinci yeri tutduq. Növbəti mövsümdə isə artıq gümüş medal qazandıq. Gözəl futbol oynayaraq və hibrid sxemlərlə bunu etdik. Bunların hamısından keçmək lazım idi - çətinliklər, şübhələr. "Krasnodar"a qayıtmaq çox çətin oldu. Bunlardan hamısından keçməli idik ki, uğura çata bilək". Qeyd edək ki, Murad Musayev 2021-2024-cü illərdə "Sabah"ı çalışdırıb. "Krasnodar" ötən mövsüm Musayevin rəhbərliyi altında tarixində ilk dəfə Rusiya çempionu olub.

# "Karvan" beş futbolçusu ilə yolları ayırdı

***"Karvan" beş futbolçusu ilə yolları ayırıb.***

"Unikal" xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb

Yeni mövsümdən Premyer Liqada çıxış edəcək Yevlax təmsilçisi müqavilə müddətləri başa çatan futbolçular - Peyman Keşhavarzi, İlham Hüseynov, Məmməd Muradov, Aref Muhammedalipour və Begzod Khulikulov ilə vidalaşıb.

Qeyd edək ki, bu yay Eltun Turabov və Süleyman Əhmədovu heyətinə cəlb edən "Karvan" Emil Qasımov, Ezekiel Morqan, Bəhruz Teymurov, İzzət Müştaqov, Elvin İsmayılov və Müşviq Teymurovla yolları ayırıb.

# Messidən yeni rekord

***Argentina millisinin və ABŞ-ın "İnter Mayami" komandasının futbolçusu Lionel Messi yeni rekorda imza atıb.***



"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, "Nyu İnqlend Revoluşın" ilə matçda dubl edən 38 yaşlı hücumçu MLS tarixində ardıcıl 4 oyunda iki qol vuran ilk oyunçu olub.

Qarşılaşma "İnter Mayami"nin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

# PSJ "Real"ı darmadağın edərək finala yüksəldi

***ABŞ-ın ev sahibliyi etdiyi klublararası dünya çempionatında yarımfinal mərhələsinin ikinci oyunu keçirilib.***

"Unikal" xəbər verir ki, finala gedən yolda Fransanın PSJ klubu ilə İspaniyanın "Real Madrid" komandası üz-üzə gəlib.

İst Raterford şəhərində yerləşən "MetLayf" stadionunda təşkil olunan qarşılaşma PSJ-nin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Fransa klubu həlledici matçda İngiltərə təmsilçisi "Çelsi" ilə qarşılaşacaq. Final oyunu iyulun 13-də gerçəkləşəcək.

# Rusiyalı idmançı ABŞ-nin tələbi ilə hava limanında saxlanıldı

***Rusiyalı basketbolçu Daniil Kasatkin ABŞ-ın tələbi ilə Fransada saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Le Monde" məlumat yayıb.

26 yaşlı Kasatkin ABŞ-nin tələbi ilə iyunun 21-də Fransada saxlanılıb. Amerikalılar idmançının fidyə proqramından istifadə edən haker şəbəkəsinin bir hissəsi olduğundan şübhələnirlər. İdmançının özü isə bütün ittihamları rədd edir.

Basketbolçu Paris Ruasi-Şarl de Qoll hava limanında həbs edilib. O, bu yaxınlarda evlilik təklifi etdiyi nişanlısı ilə birlikdəFransaya gəlib. Hazırda ekstradisiyasını gözləyir.

# Korrea "Atletiko"nu bu kluba dəyişdi - Rəsmi

***"Atletiko"nun futbolçusu Anxel Korrea klubunu dəyişib.***

QOL.az xəbər verir ki, Argentina millisinin üzvü Meksikada oynayacaq. 30 yaşlı yarımmüdafiəçi "Tiqres"lə keçib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Korrea ilə 5 illik müqavilə imzalanıb. "Tiqres" onun transferi üçün La Liqa təmsilçisinə 8 milyon avro təzminat ödəyəcək.

Qeyd edək ki, Anxel Korrea 2021-ci ildən "Atletiko"da çıxış edirdi.

# "Ayaks" İngiltərə millisinin üzvü ilə yollarını ayırdı

***Niderlandın "Ayaks" komandasında ayrılıq reallaşıb.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, Amsterdam təmsilçisi İngiltərə millisinin üzvü Cordan Hendersonla vidalaşıb. 35 yaşlı yarımmüdafiəçi ilə başa çatan müqavilənin müddəti uzadılmayıb. Henderson 2024-cü ilin yanvar ayından "Ayaks"da çıxış edirdi.